**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİ**

# B Ü L L E T E N

№ 1 (21)

Naxçıvan – 2016



*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*

*Heydər Əliyev*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

*Rəsmi sayt:* www.alimehkeme.nakhchivan.az
www.supremecourt.nakhchivan.az

**Buraxılış üçün məsul şəxs:**
*R.R.Süleymanov*

**Redaksiya heyəti :**
*Ə.K.Allahverdiyev*
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*V.K.Quliyev*
*M.Ə.Əliyev*
*G.Ə.Qurbanova*

**Məsul katib:**
*Y.F.Xəlilov*

**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 544-61-71*
*Faks: 544-70-82*

## M Ü N D Ə R İ C A T

*Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin tətbiqi elektron dövlət idarəetməsində yeni mərhələyə keçidin əsasını qoymuşdur* ................ **6**

**Yeni sənədlər, normativ aktlar**

*“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ........... **9**

*“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1339-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ...................... **10**

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ............ **11**

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1393-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ............................................................ **12**

*“Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ............ **13**

*“Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1394-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan*

*Respublikası Prezidentinin Sərəncamı* .............................................. **13**

*“Vətəndaşların müraciətləri haqqında”*
*Azərbaycan Respublikasının Qanunu* ..................................................**14**

*“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun tətbiqi barədə*
*Azərbaycan Respublikası Prezidentinin Fərmanı* ............................... **26**

*Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və Ağstafa Rayon Məhkəməsi sədrinin təyin edilməsi haqqında*
*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)* .............. **28**

*Azərbaycan qadınlarının təltif edilməsi haqqında Azərbaycan*
*Respublikası Prezidentinin Sərəncamı (çıxarış)* ................................. **28**

*“Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı* ......... **29**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 noyabr 2015-ci il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin*
*Rəyasət Heyətinin qərarı* ...................................................................... **29**

## Məhkəmə fəaliyyəti

### Mülki kollegiyadan

*Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2015-ci ilin*
*yekunları üzrə statistik məlumatların təhlili* ...................................... **33**

### İnzibati-iqtisadi kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin*
*yekunları üzrə statistik məlumatların təhlili* ...................................... **39**

### Cinayət kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin*
*yekunları üzrə statistik məlumatların təhlili* .......................................**41**

### Hərbi kollegiyadan

*Hərbi kollegiyanın 2015-ci ilin yekunları üzrə fəaliyyətinin*
*nəticələrini əks etdirən statistik məlumatlar* ..................................... **47**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin*
*qərarlarının icmalı* .............................................................................. **48**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin tətbiqi zamanı qarşıya çıxan bəzi məsələlər və onların həllinə dair təkliflər* ........ **58**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

*Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2015-ci ildə baxdığı bir sıra işlər haqqında* .......... **67**

## Azad tribuna

*Elektron məhkəmə sistemi: mövcud vəziyyət, beynəlxalq təcrübə və perspektivlər* ........**79**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2015-ci ilin oktyabr-dekabr, 2016-cı ilin yanvar-mart aylarında keçirilən tədbirlərin xülasəsi* ........ **85**

*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin bülleteni – 10 il* ........ **89**

**Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin tətbiqi elektron dövlət idarəetməsində yeni mərhələyə keçidin əsasını qoymuşdur**

Ölkəmizdə son illərdə informasiya cəmiyyətinin bərqərar olması və bunun tərkib hissəsi kimi informasiya texnologiyalarının ictimai həyatın və dövlət idarəetməsinin bütün sahələrində geniş tətbiq edilməsi istiqamətində sistemli fəaliyyət həyata keçirilməkdədir. Müasir informasiya texnologiyalarının inkişafı üzrə Elektron Azərbaycan Dövlət Proqramlarının qəbulu, ölkə Prezidenti cənab İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ilə əhaliyə elektron xidmətlərin göstərilməsinə başlanılması vətəndaş-məmur münasibətlərinin yeni müstəviyə keçməsinə təkan vermişdir.

Elektron dövlət idarəetməsi sahəsində ölkəmizdə həyata keçirilən bu islahatlar Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri cənab Vasif Talıbov tərəfindən 15 iyul 2011-ci il tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Fərman imzalanmış, muxtar respublikada yaşayan əhaliyə elektron xidmətlərin göstərilməsi üzrə fəaliyyətin hüquqi bazası yaradılmışdır.

Bu sahədə atılan addımların davamı olaraq cari ilin mart ayının 11-də "Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri"nin təqdimatı da bu baxımdan xüsusilə əlamətdardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov təqdimat mərasimində çıxış edərək demişdir: "Azərbaycana rəhbərliyi dövründə ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının inkişafını daim diqqət mərkəzində saxlayırdı. Bu siyasətin davamı olaraq informasiya texnologiyalarının inkişafını prioritet sahə elan edən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq olunan dövlət proqramları, həyata keçirilən zəruri islahatlar nəticəsində Azərbaycanın ümumdünya elektron məkanına inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılmışdır."

Ali Məclisin Sədri demişdir ki, muxtar respublikanın yaşayış məntəqələrində sürətli internetə çıxış imkanının olması Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat Sistemindən istifadəyə hərtərəfli şərait

yaradır. Yeni sistem vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin sadələşdirilməsinə, vaxt itkisinə yol verilmədən daxil olan müraciətlərə baxılmasına və cavablandırılmasına imkan verir. İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminin yaradılması isə imkan verəcəkdir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında elektron sənəd dövriyyəsi daha operativ təşkil olunsun.

"Qabaqcıl proqram təminatına əsaslanan bu sistem muxtar respublikada vətəndaş cəmiyyətinin və vətəndaşla dövlət orqanları arasında münasibətlərin inkişafına mühüm töhfədir", – deyən Ali Məclisin Sədri bu işin mühüm əhəmiyyəti olduğunu bildirmiş, bu sahədə işlərin davam etdirilməsi və daha da təkmilləşdirilməsinin, əhalinin informasiya-kommunikasiya texnologiyaları və informasiya cəmiyyəti barədə maarifləndirilməsinin zəruriliyini vurğulamış, sistemin yaradılmasında əməyi olanlara təşəkkür etmişdir.

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıq və tövsiyələr rəhbər tutularaq Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədri tərəfindən 14 mart 2016-cı il tarixdə "Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin tətbiqi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən 2016-cı ildə görüləcək işlərə dair" tədbirlər planı təsdiq edilmiş, hazırda bu tədbirlər planı icra edilməkdədir. Belə ki, İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə qoşulmaq üçün Ali Məhkəmə tərəfindən məsul şəxs təyin edilmiş, həmin sistemin tətbiqi ilə bağlı Ali Məhkəmədə zəruri infrasturuktur yaradılmış, bununla əlaqədar ayrıca otaq ayrılmış, otaq kompyuter dəsti, printer, lokal şəbəkəyə qoşulmaq üçün modem və şəhərlərarası telefon xətti ilə təchiz edilmiş, müvafiq qeydiyyat kitabları və qovluqlar hazırlanmışdır.



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin "Yeni sənədlər, normativ aktlar" sərlövhəsini təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri nizama salan, habelə məhkəmə sistemi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunvericiliyə edilən dəyişikliklər, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir.

Sərlövhədə bu günədək 170-ə yaxın qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının, həmçinin əhalinin muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq qərara alır:

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488) aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci maddə üzrə:

1.1. 8.1.1-ci maddəyə “Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi” sözlərindən sonra “,ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən işlər üzrə ali məhkəmə orqanı olan Azərbaycan Respublikasının Ali Məhkəməsi” sözləri əlavə edilsin;

1.2. 8.1.2-ci maddədən “Azərbaycan Respublikasının Ali Məhkəməsi,” sözləri çıxarılsın.

2. 11-ci maddə üzrə:

2.1. 11.1.1.1-ci maddəyə “Azərbaycan Respublikası Dövlət müşavirlərinin vəzifəsi” sözlərindən sonra “,Azərbaycan Respublikasının Ali Məhkəməsinin Aparat rəhbərinin vəzifəsi” sözləri əlavə edilsin;

2.2. 11.1.2.1-ci maddəyə “müavini vəzifəsi,” sözlərindən sonra “Azərbaycan Respublikasının Ali Məhkəməsinin Aparat rəhbərinin müavini vəzifəsi,” sözləri əlavə edilsin;

2.3. 11.1.3.1-ci və 11.1.4.1-ci maddələrdə “və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin” sözləri ”,Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 30 sentyabr 2015-ci il.

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1339-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1339-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 14 oktyabr 2015-ci il.

§

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

“Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483) 94-cü maddəsinin beşinci hissəsinin ikinci və üçüncü cümlələri aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrlərinin vəzifəyə təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq həll edilir. Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrləri istisna olmaqla, Azərbaycan Respublikası məhkəmələrinin sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyinatı Məhkəmə-Hüquq Şurasının təklifinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq aparılır.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 20 oktyabr 2015-ci il.

§

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1393-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1393-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 20 noyabr 2015-ci il.

§

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.5-ci maddənin ikinci cümləsində "təyin edən" sözləri "seçən" sözü ilə, üçüncü cümləsində "təyin edilməlidir" sözləri "seçilməlidir" sözü ilə əvəz edilsin.

2. 10-cu maddə üzrə:

2.1. 10.1-ci maddəyə "təyin etmiş" sözlərindən sonra "(seçmiş)" sözü əlavə edilsin;

2.2. 10.3-cü maddəyə "təyin edilir" sözlərindən sonra "(seçilir)" sözü əlavə edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 20 oktyabr 2015-ci il.

§

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1394-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1394-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 20 noyabr 2015-ci il.

§

## "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir.

**Maddə 1. Müraciət etmək hüququ**

1.1. Azərbaycan Respublikası vətəndaşlarının dövlət və bələdiyyə orqanlarına, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərə və büdcə təşkilatlarına və ya onların vəzifəli şəxslərinə şəxsən və

ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququ vardır.

1.2. Vətəndaşlar müraciət etmək hüququnu sərbəst və könüllü həyata keçirirlər. Vətəndaşın öz müraciət hüququnu həyata keçirməsi digər şəxslərin hüquqlarını və azadlıqlarını pozmamalıdır.

1.3. İrqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnu məhdudlaşdırmaq qadağandır.

**Maddə 2. Vətəndaşların müraciətləri haqqında qanunvericilik**

Vətəndaşların müraciətləri haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

**Maddə 3. Əsas anlayışlar**

3.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

3.0.1. müraciət edən şəxs - fiziki və ya hüquqi şəxs;

3.0.2. müraciət - müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı (o cümlədən elektron) formada göndərilən (təqdim edilən) və ya şifahi formada edilən fərdi və ya kollektiv təklif, ərizə, şikayət;

3.0.3. təklif - qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, dövlət və bələdiyyə orqanlarının və digər müraciətə baxan subyektlərin fəaliyyətinin yaxşılaşdırılması, elm, təhsil, mədəniyyət, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciət;

3.0.4. ərizə - hüquq və azadlıqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət;

3.0.5. şikayət - pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət;

3.0.6. müraciətə baxan subyekt - fiziki və hüquqi şəxslərin müraciətlərinə baxmaq və qərar qəbul etmək səlahiyyəti olan dövlət və bələdiyyə orqanları, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları;

3.0.7. müraciətə baxan subyektin canlı yayımlanan teleradio proqramındakı nümayəndəsi - müraciətə baxan subyektin razılığı ilə onu həmin

proqramda təmsil edən vəzifəli şəxs;

3.0.8. müraciətə baxan subyektin vəzifəli şəxsi - müraciətə baxan subyektin rəhbəri, dövlət orqanında inzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri olan şəxs, digər müraciətə baxan subyektlərdə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işləyən və ya həmin vəzifələri xüsusi səlahiyyət əsasında həyata keçirən şəxslər;

3.0.9. şifahi müraciət - vətəndaşların fərdi və kollektiv qəbulu zamanı və ya müraciətə baxan subyektin nümayəndəsinin iştirakı ilə canlı yayımlanan teleradio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə edilən müraciət;

3.0.10. telefon müraciət xidməti - müraciət edənin şifahi müraciətinin qəbulunu, texniki vasitələrin köməyi ilə qeydiyyatını və cavablandırılmasını həyata keçirmək üçün yaradılmış rabitə xidməti;

3.0.11. yazılı müraciət - kağız üzərində və ya elektron formada tərtib edilmiş müraciət;

3.0.12. elektron müraciət - müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilən və ya rəsmi internet saytı vasitəsilə daxil edilən müraciət;

3.0.13. kollektiv müraciət - eyni məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti, yaxud ictimai iştirakçılığın həyata keçirilməsi ilə əlaqədar olan müraciətlər;

3.0.14. təkrar müraciət - müraciətin bu Qanunla müəyyən edilmiş baxılması müddəti ötdükdə və ya həmin müraciət cavablandırıldıqda eyni şəxsin eyni məsələ ilə bağlı eyni müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə göndərdiyi növbəti müraciət;

3.0.15. anonim müraciət - müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə vətəndaşın soyadı, adı, atasının adı, ünvanı, şəxsi və ya elektron imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadan yazılı formada göndərilən müraciət.

**Maddə 4. Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri**

4.0. Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri aşağıdakılardır:

4.0.1. qanunçuluq;

4.0.2. vətəndaşların müraciət hüququnun sərbəst və könüllü həyata keçirməsinə şərait yaradılması;

4.0.3. müraciətlərə dair tələblərin vahidliyi;

4.0.4. fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması;

4.0.5. müraciətlərə baxılmasında ayrı-seçkiliyə və süründürməçiliyə yol verilməməsi;

4.0.6. müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin fəaliyyətində şəffaflığın təmin edilməsi;

4.0.7. vətəndaşların müraciət etmək hüququ ilə dövlət maraqlarının uzlaşdırılması.

**Maddə 5. Bu Qanunun tətbiq dairəsi**

5.1. Azərbaycan Respublikasının Konstitusiya qanunlarında, başqa qanunlarda, onların əsasında qəbul edilmiş digər normativ hüquqi aktlarda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları vətəndaşların bütün müraciətlərinə şamil edilir.

5.2. Bu Qanunun müddəaları vətəndaşların məhkəmə icraatı və ya inzibati icraat çərçivəsində etdikləri müraciətlərə şamil edilmir.

5.3. Hərbi qulluqçuların xidmətlə əlaqədar bilavasitə rəislərinə və ya böyük rəislərinə müraciət etmə və onlara baxılması qaydası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi və İntizam Nizamnaməsi ilə tənzimlənir.

5.4. Referendumun və seçkilərin bilavasitə təşkili və keçirilməsi ilə əlaqədar müraciətlərin edilməsi və onlara baxılması qaydası Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

5.5. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) insan hüquqlarının pozulmasına dair şikayətlərin verilməsi və bu şikayətlərə baxılması qaydası "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir.

5.6. İnformasiya əldə edilməsi üçün sorğunun verilməsi və informasiya əldə edilməsi haqqında sorğuya baxılması qaydası "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

5.7. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılması qaydası "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

5.8. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərə, habelə normativ hüquqi aktlar və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslərə və fərdi sahibkarlara müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydası bu Qanunla tənzimlənir.

5.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin müraciətlərinə şamil edilir.

**Maddə 6. Vətəndaşların müraciətlərinə dair tələblər**

6.1. Vətəndaşlar müraciətlərini həmin məsələyə baxılmasını bilavasitə təmin etməli olan müraciətə baxan subyektlərə və ya onların vəzifəli şəxslərinə yazılı formada təqdim edir və ya şifahi formada bildirirlər.

6.2. Yazılı müraciətlər şəxsən və ya nümayəndə vasitəsilə təqdim edilir və ya poçt, telefaks, yaxud bu Qanunun 6.7-ci maddəsində göstərilən qaydada göndərilir.

6.3. Yazılı müraciətdə aşağıdakılar göstərilir:

6.3.1. müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi (vəzifəli şəxsin elektron ünvanına göndərilən müraciətlər istisna olmaqla);

6.3.2. müraciət edən fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı (yaxud işlədiyi yer), hüquqi şəxsin adı və hüquqi ünvanı;

6.3.3. müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı.

6.4. Müraciət hüquqi şəxslərin firma rekvizitləri olan blankda göndərildiyi, yaxud fiziki şəxsin əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallar istisna olmaqla, bu Qanunun 6.3-cü maddəsinin tələblərinə cavab vermədikdə anonim sayılır. Anonim müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmir və onlara baxılmır.

6.5. Kağız üzərində yazılı müraciəti fiziki şəxs və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndəsi imzalamalı və tarix qoymalıdır.

6.6. Yazılı müraciət nümayəndə vasitəsilə təqdim edildikdə müraciətə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənədin surəti əlavə olunmalıdır.

6.7. Elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir. Müraciətə baxan subyektin rəsmi internet saytına daxil edilən müraciətdə vətəndaşın elektron və ya poçt ünvanı göstərilməlidir.

6.8. Elektron sənəd formasında göndərilən müraciət elektron imza ilə təsdiq olunmalıdır.

6.9. Müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. Müraciətin mətnində təhqir və böhtana yol verilməməlidir.

**Maddə 7. Vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası**

7.1. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri bu Qanunla müəyyən edilmiş qaydada verilən yazılı müraciətləri mütləq qəbul etməli, qeydiyyata almalı və onlara baxılmasını təmin etməlidirlər. Bu Qanunun tələblərinə uyğun olaraq verilən müraciəti qəbul etməkdən imtina qadağandır.

7.2. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılır və müraciətə baxan subyektin rəhbəri tərəfindən təmin edilir.

7.3. Müraciətə baxan subyektlərin müraciətlərin qəbul edilməsi və cavablandırılması işini habelə elektron formada həyata keçirmək hüququ vardır.

7.4. Vətəndaşın müraciətinə onun daxilolma tarixi və qeydiyyat nömrəsi qoyulur. Müraciət edən şəxsin tələbi ilə ona müraciətin qeydiyyat nömrəsi, tarixi və onun icraçısına dair məlumat bildirilir.

7.5. Müraciətdə göstərilən məsələyə baxıldıqda və bu barədə vətəndaşa (kollektiv müraciətlərdə - müraciət edən şəxslərdən birinə) əsaslandırılmış cavab verildikdə müraciət baxılmış hesab olunur. Müraciətə dövlət dilində cavab verilir.

7.6. Elektron müraciətlərə müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən müraciət edənin göstərdiyi elektron ünvan vasitəsilə elektron qaydada və ya müraciət edənin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı cavab verilməklə baxılır. Elektron müraciətdə müraciət edənin elektron ünvanı göstərilmədikdə müraciətə poçt vasitəsilə yazılı cavab verilir.

7.7. Vətəndaşın müraciətinə baxılmasına dair cavab məktubunda müraciətdə göstərilən məsələlərin araşdırılması və görülən tədbirlər və ya həmin məsələlərlə bağlı aidiyyəti üzrə müraciət edilməli subyekt göstərilməlidir.

7.8. Müraciətin baxılmamış saxlanılması, qismən təmin edilməsi və ya rədd edilməsi barədə qərar qəbul olunduqda, müraciət edənə cavab məktubunda həmin qərardan şikayət verilməsi qaydası izah edilir.

7.9. Müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciətdə göstərilən məsələnin həlli ilə əlaqədar əlavə məlumatların öyrənilməsi üçün aidiyyəti üzrə sorğu göndərdikdə həmin sorğuya yeddi iş günündən gec olmayaraq cavab verilməlidir.

7.10. Müraciətə baxan subyektlər və ya onların vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələlərin həlli onların səlahiyyətinə aid olmadıqda, müraciəti üç iş günündən gec olmayaraq aidiyyəti üzrə göndərir və müraciət edənə bu barədə məlumat verir. Müraciətdə göstərilən məsələ bir neçə

müraciətə baxan subyektin səlahiyyətinə aid edildikdə müraciətin surəti üç iş günündən gec olmayaraq həmin subyektlərə göndərilir.

7.11. Yuxarı dövlət orqanı vətəndaşların müraciətlərini baxılmaq üçün aidiyyəti dövlət və bələdiyyə orqanlarına və ya digər müraciətə baxan subyektə göndərdikdə həmin müraciətə baxılmanın nəticəsi barədə yuxarı dövlət orqanının tələbi ilə müraciətə baxan subyektin rəhbəri tərəfindən ona məlumat verilməlidir.

7.12. Vətəndaşın müraciətində göstərilən məsələlər "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə müraciətin bu səbəbdən mahiyyəti üzrə cavablandırılmasının mümkünsüzlüyü barədə müraciət edənə məlumat verilir.

7.13. Vətəndaşların müraciətlərini aidiyyəti üzrə baxılmaq üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərmək qadağandır.

7.14. Bu Qanunun 7.13-cü maddəsi ilə müəyyən edilmiş qadağaya görə vətəndaşın müraciətini aidiyyəti üzrə göndərmək mümkün olmadıqda vətəndaşa qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ izah olunur.

**Maddə 8. Müraciətin baxılmamış saxlanılması**

8.1. Müraciət aşağıdakı hallarda baxılmamış saxlanılır:

8.1.1. bu Qanunun 5-ci maddəsinə uyğun olaraq müraciətin edilməsi və ona baxılması üçün başqa qayda nəzərdə tutulduqda;

8.1.2. müraciət bu Qanunun 6.4-6.9-cu maddələrində göstərilən tələblərə cavab vermədikdə;

8.1.3. müraciətdə göstərilən məsələ ilə əlaqədar məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

8.1.4. vətəndaşın təkrar müraciətlərinə bir il ərzində 3 dəfə mahiyyəti üzrə əsaslandırılmış cavab verildikdə və təkrar müraciətdə məsələnin həlli üçün yeni məlumatlar olmadıqda;

8.1.5. bu Qanunun 7.9-cu maddəsində göstərilən hallarda müraciətin aidiyyəti üzrə göndərilməsi mümkün olmadıqda və ya müraciətdə olan məlumatlar onun həlli və ya aidiyyəti üzrə göndərilməsi üçün kifayət etmədikdə;

8.1.6. müraciət etmiş şəxs bu Qanunun 14.0.2-ci maddəsinə uyğun olaraq ərizə ilə müraciət etdikdə.

8.2. Bu Qanunun 8.1-ci maddəsində göstərilən hallarda müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciət edən şəxsə səbəblər göstərilməklə müraciətin (anonim müraciət istisna olmaqla) baxılmamış saxlanıl-

ması barədə beş iş günündən gec olmayaraq, şifahi müraciətin baxılmamış saxlanılması üçün əsas olduqda isə dərhal məlumat verir.

8.3. Müraciətin baxılmamış saxlanmasına əsas verən hallar aradan qaldırıldıqda müraciətə baxan subyekt ona baxılmanı təmin etməlidir.

**Maddə 9. Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə baxılmasının xüsusiyyətləri**

9.1. Dövlət orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə, bu maddənin xüsusiyyətləri nəzərə alınmaqla, bu Qanuna müvafiq olaraq baxılır.

9.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin edir. Xidməti araşdırmanı müvafiq dövlət orqanında daxili nəzarət xidməti aparır. Xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır. Əlavə materialların və məlumatların əldə edilməsi tələb olunduqda dövlət orqanı rəhbərinin bu müddəti 10 iş günü uzatmaq hüququ vardır.

9.3. Dövlət orqanının rəhbəri xidməti araşdırmanın nəticəsi barədə məlumatı aldıqdan sonra müraciət üzrə aşağıdakı qərarlardan birini qəbul edir:

9.3.1. müraciətin əsaslı olduğu təsdiq edildikdə, eyni zamanda əməldə mülki-hüquqi və ya inzibati məsuliyyəti yaradacaq əlamətlər olduqda Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülməsi, cinayət əlamətləri olan hüquqpozmalar aşkar edildikdə, müvafiq sənədlərin Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi barədə;

9.3.2. müraciətin əsaslı olması təsdiq edildikdə, lakin əməldə mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaradacaq əlamətlər olmadıqda aidiyyəti şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə;

9.3.3. müraciətin əsaslı olduğu təsdiq edilmədikdə şikayət üzrə icraata xitam verilməsi barədə.

9.4. Müraciət etmiş şəxsə qəbul olunmuş qərar haqqında əsaslandırılmış cavab verilməklə həmin qərardan şikayət etmək hüququ izah olunur.

9.5. Vətəndaşın dövlət orqanı rəhbərinin qərarından yuxarı dövlət orqanına şikayət vermək hüququ vardır. Bu müddəa vətəndaşın dövlət orqanı rəhbərinin qərarından məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır.

9.6. Dövlət orqanları istisna olmaqla, digər müraciətə baxan subyektlərdə korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə bu Qanunun 7-ci maddəsində müəyyən edilmiş qaydada 20 iş günü müddətində baxılır.

**Maddə 10. Müraciətə baxılması müddəti**

10.1. Bu Qanunun 9.2-ci, 9.6-cı və 10.2-10.4-cü maddələrində göstərilən hallar istisna olmaqla, vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır.

10.2. Bu Qanunun 9.2-ci, 9.6-cı, 10.3-cü və 10.4-cü maddələrində göstərilən hallar istisna olmaqla, müraciətə baxılması üçün əlavə məlumatların əldə edilməsi və ya aidiyyəti üzrə sorğu göndərilməsi tələb edildikdə, müraciətə baxan subyektin vəzifəli şəxsinin müraciətə baxılması müddətini ən çoxu 30 iş günü uzatmaq hüququ vardır. Bu barədə müraciət edən vətəndaşa, habelə müraciəti baxılmaq üçün bu Qanunun 7.11-ci maddəsinə uyğun olaraq digər müraciətə baxan subyektə göndərmiş yuxarı dövlət orqanına onun tələbi ilə məlumat verilməlidir.

10.3. Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə daxil olduğu gündən etibarən ən geci 15 iş günü ərzində baxılır.

10.4. Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda, müraciətin daxil olduğu andan 24 saat keçənədək baxılmalıdır.

10.5. Bu Qanunun 10.1-10.3-cü maddələrində göstərilən müddətlərin axımı müraciətin müraciətə baxan subyektə daxil olduğu gündən başlanır.

**Maddə 11. Vətəndaşların qəbul edilməsi qaydası**

11.1. Müraciətə baxan subyektlər vətəndaşların qəbul edilməsini vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ayda bir dəfədən az olmamaqla təmin etməlidirlər.

11.2. Vətəndaşları müraciətə baxan subyektlərin rəhbərləri və ya digər vəzifəli şəxsləri qəbul edirlər.

11.3. Vətəndaşlar əvvəlcədən məlumat verilən günlərdə və saatlarda qəbul edilməlidirlər. Vətəndaşın müraciəti ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi tələb edildikdə müraciətə baxan subyektin rəhbəri və ya digər vəzifəli şəxsləri onları dərhal qəbul etməlidirlər.

11.4. Vətəndaş şəxsiyyətini təsdiq edən sənəd və ya şəxsiyyətini müəyyən edən rekvizitlər və ya elektron imza olduqda elektron xidmətlər vasitəsilə qəbula yazılır. Qəbula gəlmiş vətəndaş şəxsiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

11.5. Qəbul zamanı təqdim edilmiş yazılı müraciət bu Qanunun 7-ci maddəsinə uyğun olaraq qəbul edilir, qeydiyyata alınır və ona baxılır.

11.6. Vətəndaşın şifahi müraciəti ilə bağlı qəbula dair qeydiyyat-nəzarət vərəqəsində qeyd aparılır. Şifahi müraciətdəki məsələlərin həlli əlavə araş-

dırma aparılmasını tələb etmədikdə vətəndaşın razılığı ilə müraciət qəbul zamanı şifahi qaydada cavablandırılır. Qəbul zamanı vətəndaşın müraciətini şifahi qaydada cavablandırmaq mümkün olmadıqda müraciət yazılı şəkildə təqdim olunur. Belə müraciətin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası bu Qanunun 11.5-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

11.7. Vətəndaşın qəbulu zamanı onun müraciətində qaldırılan məsələnin digər müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin səlahiyyətinə aid olduğu aşkar edilərsə, müraciət edən şəxsə aidiyyəti üzrə müraciət etmə qaydası izah olunur.

11.8. Müraciətə baxan subyektlərin rəhbərlərinin və digər vəzifəli şəxslərinin səyyar və videoqəbullar, o cümlədən onlayn konfranslar keçirmək hüququ vardır. Bu cür qəbul zamanı təqdim edilən müraciətlərin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası bu maddəyə uyğun olaraq həyata keçirilir.

**Maddə 12. Müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin vəzifələri**

12.1. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilən və təminat verilən qaydada vətəndaşların yazılı və şifahi formada təkliflər vermək, ərizə ilə müraciət etmək, vəzifəli şəxslərin qanunazidd hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək hüquqlarının sərbəst həyata keçirilməsi üçün şərait yaradılmasını təmin etməlidirlər.

12.2. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməli, onlara bu Qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxmalı və cavab verməlidirlər.

12.3. Müraciətə baxan subyektlərin vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə baxarkən:

12.3.1. müraciətə obyektiv, hərtərəfli və vaxtında baxılmasını təmin etməlidirlər;

12.3.2. məsələnin mahiyyətini öyrənməli və onun həlli üçün lazımi sənədləri tələb etməlidirlər;

12.3.3. müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara yazılı formada məlumat verməli, müraciət təmin edilmədikdə bunun səbəblərini göstərməli, şikayət vermək qaydasını izah etməlidirlər;

12.3.4. müraciətlər barəsində əsaslandırılmış qərarların qəbul edilməsini və bu qərarların vaxtında və düzgün yerinə yetirilməsini təmin etməlidirlər.

12.4. Dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı

vətəndaşların fəaliyyətinin və ya işinin tənqid edilməsi ilə bağlı, yaxud vətəndaşın və ya digər şəxslərin hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədi ilə edilən müraciətə görə vətəndaşı təqib etmək qadağandır.

12.5. Müraciətlərə baxılması zamanı müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin müraciətdəki məsələlərin həlli ilə əlaqədar əldə olunmuş məlumatları, o cümlədən dövlət sirri təşkil edən və qanunla qorunan digər məlumatları yayması (yazılı müraciətin aidiyyəti üzrə baxılması üçün digər müraciətə baxan subyektlərə və onların vəzifəli şəxslərinə göndərilməsi istisna olmaqla), eləcə də müraciətin həlli ilə bağlı olmayan fərdi məlumatların, o cümlədən xüsusi kateqoriyalı fərdi məlumatların toplanılması, saxlanılması, istifadəsi və yayılması qadağandır.

12.6. Dövlət orqanının (və ya onun vəzifəli şəxsinin) qanunazidd hərəkəti (hərəkətsizliyi) barədə prokurorluq orqanlarına daxil olmuş müraciətlərə bu Qanuna və "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılır. Bu cür müraciətlər prokurorluq orqanlarının səlahiyyətlərinə aid olmadıqda onlar beş iş günü müddətində müraciət edən şəxsə qaytarılır. Vətəndaşın müraciəti müraciətə baxan subyekt (və ya onun vəzifəli şəxsi) tərəfindən aidiyyəti üzrə baxılması üçün prokurorluq orqanına göndərildikdə həmin subyektə (və ya onun vəzifəli şəxsinə) onun xahişi ilə baxılmanın nəticəsi barədə məlumat verilir.

12.7. Azərbaycan Respublikasının Baş prokuroru bu Qanunun 12.6-cı maddəsində göstərilən müraciətlərə baxılmasının nəticələri barədə altı ayda bir dəfədən az olmayaraq müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

**Maddə 13. Nəzarətin həyata keçirilməsi**

13.1. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlıq işinin aparılmasına nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

13.2. Bu Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş nəzarətin həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 14. Müraciətlərə baxılması zamanı vətəndaşların hüquqları**

14.0. Müraciətinə baxılan vətəndaşın aşağıdakı hüquqları vardır:

14.0.1. müraciətin tam və hərtərəfli araşdırılması üçün əlavə sənəd və materiallar təqdim etmək və ya bu sənədlərin əldə edilməsini (o cümlədən elektron formada) müraciətə baxan subyektdən xahiş etmək;

14.0.2. müraciətə baxılmasının dayandırılması barədə ərizə ilə müraciət etmək;

14.0.3. təkrar yazılı müraciətə ilkin müraciətə baxılmasının nəticəsi barədə sənədləri əlavə etmək;

14.0.4. ictimai informasiya və fərdi məlumatların əldə edilməsi məqsədi ilə sorğu vermək;

14.0.5. müraciətin baxılmasına dair sənədlərin və materialların digər şəxslərin hüquqlarına və qanuni mənafelərinə toxunmaması və ya qanunla dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edilməməsi şərti ilə həmin sənəd və materiallarla tanış olmaq;

14.0.6. müraciətin qeydiyyat nömrəsi və daxilolma tarixi barədə, müraciət aidiyyəti üzrə göndərildikdə həmin məktubun qeydiyyat nömrəsi və göndərilmə tarixi barədə məlumat almaq;

14.0.7. müraciətə baxılması barədə yazılı cavab və ya müraciətin aidiyyəti üzrə göndərilməsinə dair məlumat almaq;

14.0.8. müraciət barəsində qəbul edilmiş qərarla razılaşmadıqda həmin qərardan inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermək;

14.0.9. müraciətin məzmununda vətəndaşın ailə və şəxsi həyatına aid sirr olan, habelə peşə və ya kommersiya sirri olan sənədlərin və ya məlumatların məxfiliyinin təmin olunmasını tələb etmək.

**Maddə 15. Canlı yayımlanan teleradio proqramları və ya telefon müraciət xidməti vasitəsilə edilən şifahi müraciətlərin xüsusiyyətləri**

15.1. Canlı yayımlanan teleradio proqramları vasitəsilə edilən şifahi müraciət üzrə əlavə araşdırma aparmadan izah verilməsi mümkün olduqda müraciətə baxan subyektin həmin proqramda iştirak edən nümayəndəsinin qeydiyyat aparmadan müraciəti canlı yayımda cavablandırmaq hüququ vardır.

15.2. Vətəndaşların canlı yayımlanan teleradio proqramları zamanı edilən müraciətlərinin dərhal cavablandırılması mümkün olmadıqda müraciətin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası bu Qanunun 7-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

15.3. Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması bu Qanunun tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 16. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 17. Yekun müddəa**

“Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 417; 1998, № 7, maddə 444; 1999, № 10, maddə 570; 2001, № 3, maddə 151, № 11, maddə 697, № 12, maddə 736; 2002, № 8, maddə 463; 2004, № 1, maddə 10; 2006, № 5, maddə 390, № 12, maddə 1005; 2007, № 11, maddə 1053; 2010, № 3, maddə 173; 2011, № 7, maddə 615) ləğv edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 30 sentyabr 2015-ci il.

§

## “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Qanunun pozulmasına görə məsuliyyət müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin Qanunun 7.2-ci maddəsinə uyğun olaraq, dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydasını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. həmin Qanunun 13.2-ci maddəsinə uyğun olaraq, dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın

aparılmasına nəzarətin həyata keçirilməsi qaydasını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.5. həmin Qanunun 5.8-ci maddəsinə uyğun olaraq, ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin Qanunun 15.3-cü maddəsinə uyğun olaraq telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci, 12.7-ci və 13.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 5.8-ci və 15.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirir.

3. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12.7-ci maddəsində nəzərdə tutulmuş məlumata dövlət orqanının qanunazidd qərarları və onun vəzifəli şəxsinin qanunazidd hərəkətləri (hərəkətsizliyi) barədə məlumatlar da daxil edilir.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 12 noyabr 2015-ci il.

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və Ağstafa Rayon Məhkəməsi sədrinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)

Məhkəmə-Hüquq Şurasının bir sıra hakimlərin səlahiyyətlərinin uzadılmasına dair təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

...

6. Aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikası məhkəmələrinin hakimləri təyin edilsinlər:

Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi
İbrahimov İlham Sadət oğlu
Naxçıvan Şəhər Məhkəməsi
Allahverdiyev Mehman Dünyamalı oğlu

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 26 oktyabr 2015-ci il.

§

## Azərbaycan qadınlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

...

Kuimova Vera Gennadiyevna

...

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 1 mart 2016-cı il.

§

**“Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında**
**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyəti orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Abdullayev Mahmud Vaqif oğlu

Əsgərov Elnar Muxtər oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 1 fevral 2016-cı il.

§

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 noyabr 2015-ci il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin**

**QƏRARI**

10 noyabr 2015-ci il Naxçıvan şəhəri

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti Süleymanov Ramiz Rəhim oğlunun sədrliyi ilə, Rəyasət Heyətinin üzvləri Allahverdiyev Əli Kərim oğlu və Məmmədov Qabil Neymət oğlundan ibarət tərkibdə, Əliyeva Gülsüm Kamal qızının katibliyi,

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhərrəm Əli oğlunun, sədr müavini Qədimov Əli Tofiq oğlunun, katibi Eyvazov Elnur Həsənəli oğlunun, üzvlər Hüseynov Tural Cəmaləddin oğlunun, Həsənov Tural Dünyanur oğlunun və Bayramova Vahidə Vahid qızının,

Mütəxəssislər Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Məmmədov Məhərrəm Allahverdi oğlunun, Şirzadov Cavanşir Əli oğlunun və Rzayev Xalid Məhərrəm oğlunun iştirakı ilə

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə uyğun olaraq konstitusiya icraatı qaydasında Naxçıvan Muxtar Respublikası

Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2015-ci il noyabrın 1-də keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi haqqında işə baxaraq hakim Məmmədov Qabil Neymət oğlunun məruzəsini, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhərrəm Əli oğlunun çıxışını və mütəxəssislərin arayışını dinləyib müzakirə edərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti

**MÜƏYYƏN ETDİ:**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin 2-ci hissəsinin 1-ci bəndinə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8.1-ci maddəsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 avqust 2015-ci il tarixli Sərəncamına əsasən 1 noyabr 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər keçirilmişdir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən 5 noyabr 2015-ci il tarixdə 45 seçki dairəsinin və 316 məntəqə seçki komissiyasının 1 noyabr 2015-ci ildə tərtib edilmiş seçkilərin nəticələri haqqında protokolları, həmçinin seçkinin ümumi yekunlarının müəyyənləşdirilməsinə dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 4 noyabr 2015-ci il tarixli SQ-13/2015 nömrəli qərarı və protokolu təqdim edilmişdir.

Təqdim edilmiş seçkilərin ümumi yekunları haqqında sənədlərdə 1 noyabr 2015-ci il tarixdə 45 seçki dairəsi üzrə 316 seçki məntəqəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş seçkilərin nəticələri öz əksini tapmışdır.

Seçkilərin ümumi yekunları haqqında təqdim edilmiş sənədlərdən məlum olur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə 45 seçki dairəsindən passiv seçki hüququ olan 135 nəfər Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən deputatlığa namizəd kimi qeydə alınmışdır.

Səsvermə günü Naxçıvan Muxtar Respublikası üzrə 45 seçki dairəsinin 316 seçki məntəqəsində səsvermə keçirilmişdir.

Seçki sənədləri yoxlanılarkən müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi üçün yaradılmış 45 seçki

dairəsini əhatə edən 316 seçki məntəqəsi üzrə aktiv seçki hüququ olan 268463 seçici ümumi seçici siyahılarına daxil edilmiş, onlardan 205166 nəfəri, yəni 76.4 faizi səsvermədə iştirak etmişdir. Səsvermədə iştirak etmiş seçicilərin 205116 nəfəri bilavasitə seçki məntəqələrində, 50 nəfəri isə qanunun tələbinə uyğun olaraq səsvermə otağından kənarda səs vermişlər. Seçki qutularında aşkar edilən 205165 bülletendən 203991 seçki bülleteni, yəni 99.4 faizi etibarlı hesab edilmiş, 1174 bülleten, yəni 0.6 faizi isə etibarsız hesab edilmişdir.

Məntəqələr üzrə seçki günü 9 ədəd korlanmış, 63288 ədəd isə istifadə edilməmiş seçki bülletenləri məntəqə seçki komissiyaları tərəfindən ləğv edilmişdir. Göstərilənlər “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 88-89-cu maddələrinin tələblərinə uyğundur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin yekunlarına dair təqdim olunmuş sənədlərin təhlilindən görünür ki, muxtar respublikanın ərazisində yaradılmış 316 seçki məntəqəsində 1 noyabr 2015-ci il tarixdə seçkilərin keçirilməsi zamanı aşkarlığı təmin etmək məqsədi ilə “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 37-41-ci maddələrinin tələblərinə uyğun olaraq 1 nəfər beynəlxalq, 497 nəfər müxtəlif siyasi partiyaların müşahidəçiləri və 126 nəfər yerli müşahidəçilər seçkilərin gedişini izləmişlər.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən tələb edilmiş sənədlərin, habelə cəlb olunmuş mütəxəssislərin arayışının təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 seçki dairəsi üzrə keçirilmiş seçkilərin nəticələri barədə protokolları, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 4 noyabr 2015-ci il tarixli protokolu və onlara əlavə edilmiş sənədlər “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə cavab verir.

Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin yekunları təsdiq edilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti göstərilənlərə əsaslanıb Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsini və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2015-ci il noyabrın 1-də keçirilmiş 45 seçki dairəsi üzrə seçkilərin nəticələri bütövlükdə təsdiq edilsin.

2. Qərar elan olunduğu gündən qüvvəyə minir.

3. Qərar “Şərq qapısı” qəzetində dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan tərəfindən ləğv edilə, dəyişdirilə və yaxud rəsmi təfsir edilə bilməz.

Sədrlik edən: Ramiz Süleymanov

§



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2015-ci ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2015-ci ildə 1472 mülki işə baxılmaqla nəticə verilmişdir. 2014-cü ildə isə həmin məhkəmələr tərəfindən 1225 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2014-cü illə müqayisədə 2015-ci ildə 20,16% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 86 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı ötən il 86 mülki işdən 73 işə apellyasiya qaydasında baxılaraq 44 qətnamə və 4 qərardad dəyişdirilmədən saxlanılmış, 25 qətnamə isə dəyişdirilmiş və ya ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 13 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 30 iş
- mənzil mübahisələri – 5 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 9 iş
- torpaq mübahisələri – 3 iş
- xüsusi icraat işləri üzrə – 2 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr – 3 iş

- əmək mübahisələri üzrə - 1 iş
- vərəsəlik hüququ üzrə mübahisələr – 1 iş
- digər mülki işlər – 19 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2015-ci ildə baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2014-cü illə müqayisədə 2015-ci ildə apellyasiya şikayətlərinin sayı 82,98% artmışdır. Belə ki, 2014-cü ildə birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 47 apellyasiya şikayətinə baxılmışdır. Bu artım isə onu deməyə əsas verir ki, əhalinin məhkəmə orqanlarına və ədalət mühakiməsinin obyektiv şəkildə həyata keçirilməsinə inamı gün keçdikcə artmaqdadır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2014-cü illə müqayisədə 2015-ci ildə aşağı olmuşdur. Belə ki, 2014-cü ildə rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 1225 qətnamə və qərardadlardan 1,39%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2015-ci ildə məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1472 qətnamə və qərardadlardan 1,70%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2014-cü ildə 98,61%, 2015-ci ildə isə 98,30% təşkil etmişdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, muxtar respublikanın şəhər və rayon məhkəmələrinə 2015-ci ildə daxil olan mülki işlərin 33,97%-ni nikahın ləğvi tələbi ilə əlaqədar olan işlər təşkil etmişdir. Müqavilələrdən əmələ gələn öhdəliklər, vərəsəlik hüququ və mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə işlərin sayı da digər mübahisələrə nisbətən daha çox olmuşdur.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2015-ci ildə apellyasiya qaydasında baxılan qərarların 30,14%-nin ləğv və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2014 və 2015-ci illərə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2014-cü ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **21** | **3** | **11** | **2** | **1** | | **1** | **1** | **2** |
| **Babək** | **3** | | **1** | | **1** | | | | **1** |
| **Şərur** | **7** | | **3** | | **3** | **1** | | | |
| **Şahbuz** | **5** | **1** | **3** | | **1** | | | | |
| **Kəngərli** | **3** | | **2** | | | | | | **1** |
| **Sədərək** | **1** | | | | | | | **1** | |
| **Culfa** | **2** | | **1** | **1** | | | | | |
| **Ordubad** | **5** | **1** | | | **3** | | | **1** | |
| **YEKUN** | **47** | **5** | **21** | **3** | **9** | **1** | **1** | **3** | **4** |

2015-ci ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **31** | **2** | **21** | **2** | **2** | **1** | **3** | | |
| **Babək** | **7** | | **6** | **1** | | | | | |
| **Şərur** | **16** | **3** | **5** | **3** | **4** | | | | **1** |
| **Şahbuz** | **10** | **4** | **3** | | **1** | | **1** | | **1** |
| **Kəngərli** | **3** | | **2** | **1** | | | | | |
| **Culfa** | **13** | **4** | **6** | | **2** | | | | **1** |
| **Ordubad** | **5** | | **1** | **4** | | | | | |
| **Sədərək** | **1** | | | | | | | | **1** |
| **YEKUN** | **86** | **13** | **44** | **11** | **9** | **1** | **4** | | **4** |

Apellyasiya qaydasında 2015-ci ildə ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə,

eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Ordubad Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Sədərək Rayon Məhkəməsi malikdirlər. Belə ki, 2015-ci ildə Ordubad Rayon Məhkəməsində çıxarılan 96 qərardan 4 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 4,17%-i dəyişdirildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 95,83% olduğu halda, Sədərək Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki, həmin dövrdə Sədərək Rayon Məhkəməsi tərəfindən çıxarılmış 26 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və ya dəyişdirilməmişdir.

Babək Rayon Məhkəməsi tərəfindən 2015-ci ildə çıxarılan 202 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,49%-i dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,51% təşkil etmişdir.

Kəngərli Rayon Məhkəməsi tərəfindən 2015-ci ildə çıxarılan 120 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,83%-i dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,17% təşkil etmişdir.

Şahbuz Rayon Məhkəməsi tərəfindən 2015-ci ildə çıxarılan 144 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,39%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,61% təşkil etmişdir.

Naxçıvan Şəhər Məhkəməsi tərəfindən 2015-ci ildə çıxarılan 465 qətnamə və qərardaddan 8 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,72%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,28% təşkil etmişdir.

Şərur Rayon Məhkəməsi tərəfindən 2015-ci ildə çıxarılan 339 qətnamə və qərardaddan 7 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,06%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,94% təşkil etmişdir.

Culfa Rayon Məhkəməsi tərəfindən 2015-ci ildə çıxarılan 80 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,5%-i ləğv edilmişdir, beləliklə məhkəmə qərarlarının sabitlik göstəricisi 97,5% təşkil etmişdir.

2014-cü ildə isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Kəngərli Rayon Məhkəməsi – 100% (73 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Babək Rayon Məhkəməsi – 99,36% (156 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,64%-i ləğv edilmişdir);
- Şahbuz Rayon Məhkəməsi – 99,30% (142 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,7%-i ləğv edilmişdir);
- Naxçıvan Şəhər Məhkəməsi – 98,88% (447 qətnamə və qərardaddan 4 qətnamə və 1 qərardad, yəni 1,12%-i ləğv edilmişdir);
- Culfa Rayon Məhkəməsi – 98,51% (67 qətnamə və qərardaddan 1 qətnamə, yəni 1,49%-i ləğv edilmişdir);
- Şərur Rayon Məhkəməsi – 98,41% (252 qətnamə və qərardaddan 4 qətnamə, yəni 1,59%-i ləğv edilmişdir).
- Ordubad Rayon Məhkəməsi – 94,37% (71 qətnamə və qərardaddan 3 qətnamə və 1 qərardad, yəni 5,63%-i ləğv edilmişdir);
- Sədərək Rayon Məhkəməsi – 94,12% (17 qətnamə və qərardaddan 1 qərardad, yəni 5,88%-i ləğv edilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2014 və 2015-ci illərə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Naxçıvan Şəhər Məhkəməsinin, eləcə də Culfa, Kəngərli, Şahbuz və Şərur rayon məhkəmələrinin sabitlik göstəricisi 2014-cü illə müqayisədə aşağı düşmüş, Sədərək, Ordubad və Babək rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmənin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2014-cü ildə olduğu kimi ötən ildə də ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2014-cü ildə 447 mülki işə, 2015-ci ildə isə 465 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- Şərur Rayon Məhkəməsi – 339 iş (2014-cü ildə 252 işə baxılmışdır);
- Babək Rayon Məhkəməsi – 202 iş (2014-cü ildə 156 işə baxılmışdır);
- Şahbuz Rayon Məhkəməsi – 144 iş (2014-cü ildə 142 işə baxılmışdır);
- Kəngərli Rayon Məhkəməsi – 120 iş (2014-cü ildə 73 işə baxılmışdır);
- Ordubad Rayon Məhkəməsi – 96 iş (2014-cü ildə 71 işə baxılmışdır);
- Culfa Rayon Məhkəməsi – 80 iş (2014-cü ildə 67 işə baxılmışdır);

- Sədərək Rayon Məhkəməsi – 26 iş (2014-cü ildə 17 işə baxılmışdır);

Göründüyü kimi 2014-cü illə müqayisədə 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının bütün rayon və şəhər məhkəmələrinin iş yükü artmışdır.

2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 15 kassasiya şikayəti verilmiş, həmin şikayətlərdən 9 işə mahiyyəti üzrə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 8 qətnamə və 1 qərardadı dəyişdirilmədən saxlanılmış, 6 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2015-ci ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN***

## Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin yekunları üzrə statistik məlumatların təhlili

2015-ci ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına ümumilikdə inzibati və iqtisadi mübahisələrlə bağlı 148 iş daxil olmuş, onlardan 4 iş 2014-cü ildən cari ilə qalıq qalmış, 144 iş isə 2015-ci ildə daxil olmuşdur. Daxil olmuş işlərdən 44 iş iqtisadi mübahisələrə dair, 104 iş isə inzibati mübahisələrə dair mülki işlər olmuşdur.

İqtisadi mübahisələr üzrə işlərdən 37 işə mahiyyəti üzrə baxılmaqla 33 iş üzrə iddia təmin edilmiş, 3 işin icraatına xitam verilmiş, 1 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 3 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 4 mülki iş 2016-cı ilə qalıq qalmışdır.

İnzibati mübahisələr üzrə işlərdən 62 işə mahiyyəti üzrə baxılmaqla 28 iş üzrə iddia təmin, 6 iş üzrə iddia rədd edilmiş, 28 işin icraatına xitam verilmişdir. 31 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 1 iş aidiyyəti üzrə başqa məhkəməyə göndərilmiş, 10 iş isə 2016-cı ilə qalıq qalmışdır.

2014-cü illə müqayisədə 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı daxil olan işlərin sayı 19,35% artmışdır. Belə ki, 2014-cü ildə İnzibati-İqtisadi Məhkəmənin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı 124 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinə 2015-ci ildə daxil olan işlərin böyük əksəriyyətini məcburetmə və hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında olan inzibati və iqtisadi mübahisələr haqqında iddialara dair (112 iş – yəni 75,67%) işlər təşkil etmişdir.

2015-ci ildə inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 14 apellyasiya şikayətinə baxılmışdır. Kollegiyada həmin şikayətlərə baxılaraq 4 iş üzrə 1 qərar və 3 qərardad ləğv edilmiş, 10 iş üzrə 3 qərar və 7 qərardad isə dəyişdirilmədən qüvvədə saxlanılmışdır. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 7 apellyasiya şikayətinə baxılmışdır. Göründüyü kimi 2014-cü illə müqayisədə 2015-ci ildə kollegiyada baxılan inzibati mübahisələrlə bağlı işlərin sayı artmışdır.

2015-ci ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin iqtisadi mübahisələrə dair mülki işlərlə bağlı çıxardığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2 apellyasiya şikayətinə

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qətnamə dəyişdirilmədən qüvvədə saxlanılmış, 1 qətnamə isə dəyişdirilmişdir. 2014-cü ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında iqtisadi mübahisələrlə bağlı 3 işə baxılmışdır. Göründüyü kimi 2014-cü illə müqayisədə 2015-ci ildə kollegiyada baxılan iqtisadi mübahisələrə dair mülki işlərin sayı azalmışdır.

2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılan inzibati mübahisələrə dair işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına 5 kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qərar üzrə kassasiya şikayəti mümkün sayılmamış və kassasiya şikayətinin qəbulundan imtina edilmiş, 2 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qərardad ləğv edilərək baxılması üçün geri qaytarılmış, 1 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılan iqtisadi mübahisələrə dair mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına 1 kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayəti hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının çıxardığı qərarlardan 1 qərardad ləğv edildiyindən sabitlik göstəricisi 93,75% təşkil etmişdir.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

## *CİNAYƏT KOLLEGİYASINDAN*

### Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2015-ci ildə 19 nəfərin barəsində 19 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə həmin məhkəmələr tərəfindən 34 nəfərin barəsində 28 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2015-ci ildə baxılmış 1 cinayət işi üzrə 1 nəfər barəsində bəraət hökmü, 18 cinayət işi üzrə 18 nəfərin barəsində isə ittiham hökmləri çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2014 və 2015-ci illərə dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| **Cinayətlərin növü** | **2014-cü il üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** | **2015-ci il üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər | 3 / 3 | 5 / 5 |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 3 / 3 | 2 / 2 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | 1 / 1 | 1 / 1 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 5 / 4 | 4 / 4 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 14 / 10 | 4 / 4 |
| Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər | 1 / 1 | - |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | 3 / 3 | - |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | 2 / 2 | - |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | 2 / 1 | 2 / 2 |

Cədvəldən göründüyü kimi 2014-cü ildən fərqli olaraq 2015-ci ildə həyat və sağlamlıq əleyhinə olan və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin sayı azalmış, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı və idarəetmə qaydası əleyhinə olan cinayətlərin sayı artmış, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan və mülkiyyət əleyhinə olan cinayətlərə dair göstəricilər dəyişməmişdir. Ötən ildən fərqli olaraq 2015-ci ildə hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları, ictimai təhlükəsizlik və korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə dair işlər daxil olmamışdır.

2014 və 2015-ci illərdə məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| **Təyin olunan əsas cəzaların növləri** | **2014-cü il üzrə məhkumların sayı** | **2015-ci il üzrə məhkumların sayı** |
|---|---|---|
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 21 nəfər | 14 nəfər |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 6 nəfər | 3 nəfər |
| Cərimə | 5 nəfər | 1 nəfər |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2014-cü ildə məhkum edilmiş şəxslərin 65,63%-ni, 2015-ci ildə isə məhkum olunanların 77,78%-ni təşkil etmiş, yəni 2014-cü illə müqayisədə 2015-ci ildə cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 12,15% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan həcmi isə əksinə 12,15% azalmışdır (ümumilikdə götürüldükdə).

2014 və 2015-ci illərdə baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2014-cü il üzrə (məhkumun və cinayət işinin sayı)** | **2015-ci il üzrə (məhkumun və cinayət işinin sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 6 nəfər / 4 iş | 4 nəfər / 4 iş |
| Naxçıvan Şəhər Məhkəməsi | 6 / 6 | 6 / 6 |
| Culfa Rayon Məhkəməsi | 9 / 7 | 4 / 4 |
| Şərur Rayon Məhkəməsi | 3 / 3 | 2 / 2 |

| | | |
|---|---|---|
| Babək Rayon Məhkəməsi | 1 / 1 | 1 / 1 |
| Kəngərli Rayon Məhkəməsi | 3 / 3 | - |
| Ordubad Rayon Məhkəməsi | - | 2 / 2 |
| Sədərək Rayon Məhkəməsi | 4 / 3 | - |
| Şahbuz Rayon Məhkəməsi | 2 / 1 | - |

Cədvəldən göründüyü kimi 2014-cü ildən fərqli olaraq 2015-ci ildə Culfa və Şərur rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı azalmış, Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinin, Naxçıvan Şəhər və Babək rayon məhkəmələrinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər isə dəyişməmişdir. Ötən ildən fərqli olaraq Kəngərli, Sədərək və Şahbuz rayon məhkəmələrinin icraatına cinayət işi daxil olmamış, Ordubad Rayon Məhkəməsinin icraatına isə cinayət işi daxil olmuşdur.

2015-ci ildə birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 10 hökm dəyişdirilmədən qüvvədə saxlanılmış, 2 hökm isə dəyişdirilmişdir.

Dəyişdirilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2015-ci ildə çıxardıqları bütün hökmlərin 10,53%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 89,47% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə 5 hökm yəni, birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin 19,23%-i dəyişdirilmiş, beləliklə, hökmlərin sabitlik göstəricisi həmin ildə 80,77% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2015-ci ildə 39 işə (materiala) baxılmışdır. 2014-cü illə müqayisədə bu göstərici 25% azalmışdır (həmin dövrdə 52 işə baxılmışdır).

2015-ci ildə xüsusi icraat qaydasında həll edilən işlərdən 17 iş (43,59%) həbs qətimkan tədbirinin seçilməsi, 9 iş (23,08%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 5 iş (12,82%) tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi, 4 iş (10,26%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 2 iş (5,13%) yaşayış yerinə, xidməti və istehsalat binalarına baxış, axtarış, götürmə, 1 iş (2,56%) xəstəliyə və hökmün icra müddətinin başa çatmasına görə cəzaçəkməkdən azad etmə, 1 iş (2,56%) cəzanın növünün dəyişdirilməsi barədə olmuşdur.

Muxtar respublikanın rayon (şəhər) məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2014 və 2015-ci illərin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| Məhkəmənin adı | 2014-cü il üzrə (şəxslərin və işlərin sayı) | 2015-ci il üzrə (şəxslərin və işlərin sayı) |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 29 nəfər / 29 iş | 12 nəfər / 12 iş |
| Şərur Rayon Məhkəməsi | 1 / 1 | 1 / 1 |
| Babək Rayon Məhkəməsi | - | 3 / 3 |
| Culfa Rayon Məhkəməsi | 1 / 1 | 1 / 1 |
| Ordubad Rayon Məhkəməsi | - | 2 / 2 |
| Kəngərli Rayon Məhkəməsi | 20 / 20 | 19 / 19 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | 1 / 1 | 1 / 1 |

2015-ci ildə muxtar respublikanın rayon (şəhər) məhkəmələrinin xüsusi icraat qaydasında çıxardıqları qərarlardan 1 apellyasiya şikayəti verilmişdir. Babək Rayon Məhkəməsinin qərarından verilmiş həmin şikayət təmin edilməmiş və qərar dəyişdirilmədən qüvvəsində saxlanılmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrində 2015-ci ildə 540 nəfərin barəsində 527 inzibati xəta haqqında işə baxılmışdır.

2014-cü illə müqayisədə 2015-ci ildə baxılan inzibati xəta haqqında işlərin sayı 84,26%, inzibati xəta törətmiş şəxslərin sayı isə 75,32% artmışdır (2014-cü ildə 308 nəfərin barəsində 286 inzibati xəta haqqında işə baxılmışdır).

2015-ci ildə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 69 nəfərə (12,78%) inzibati həbs, 66 nəfərə (12,22%) inzibati cərimə, 17 nəfərə (3,15%) xəbərdarlıq, 139 nəfərə (25,74%) isə inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 249 (46,11%) nəfərin barəsində 249 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2014 və 2015-ci illərə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| İnzibati xətanın növləri | 2014-cü il üzrə (şəxs və işlərin sayı) | 2015-ci il üzrə (şəxs və işlərin sayı) |
|---|---|---|
| Xırda xuliqanlıq | 39 nəfər / 34 iş | 27 nəfər/ 27 iş |
| Aksiz markası olmayan məhsulların, malların satılması | 4 nəfər / 4 iş | 9 nəfər / 9 iş |
| Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması | 1 nəfər / 1 iş | - |

| | | |
|---|---|---|
| Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma | 21 nəfər / 21 iş | 23 nəfər / 23 iş |
| Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi | 3 nəfər / 3 iş | - |
| Nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi | 3 nəfər / 3 iş | 2 nəfər / 2 iş |
| Xırda talama | 4 nəfər / 3 iş | 1 nəfər / 1 iş |
| Mülki silahın saxlanılması üçün icazə ləğv edildikdən sonra vətəndaşların onu satmaqdan boyun qaçırması | 3 nəfər / 3 iş | - |
| Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama | 57 nəfər / 49 iş | 19 nəfər / 14 iş |
| Qumar oyunu | - | 12 nəfər / 8 iş |
| Məhkəməyə hörmətsizlik göstərilməsi | - | 1 nəfər / 1 iş |
| Məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi | 25 nəfər / 25 iş | 53 nəfər/ 53 iş |
| Digər inzibati xətalar | 88 nəfər / 84 iş | 144 nəfər/140 iş |

Göründüyü kimi 2014-cü illə müqayisədə 2015-ci ildə rayon (şəhər) məhkəmələri tərəfindən baxılan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 9,52%, aksiz markası olmayan məhsulların, malların satılması, məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi ilə əlaqədar, habelə digər inzibati xətalarla bağlı barəsində tənbeh tədbiri tətbiq olunan şəxslərin sayı 2 dəfə artmışdır. 2014-cü ildən fərqli olaraq 2015-ci ildə xırda xuliqanlıqla bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 30,77%, nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 33,33%, xırda talama ilə bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 75%, polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı isə 66,66% azalmışdır. Ötən ildən fərqli olaraq 2015-ci ildə rayon (şəhər) məhkəmələrinin icraatına Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi, nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması, mülki silahın saxlanılması üçün icazə ləğv edildik-

dən sonra vətəndaşların onu satmaqdan boyun qaçırması ilə bağlı işlər daxil olmamış, məhkəməyə hörmətsizlik göstərilməsi və qumar oyununda iştirak etmə ilə bağlı olan inzibati xətaya dair işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2014 və 2015-ci illərə dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2014-cü il üzrə (şəxs və işlərin sayı)** | **2015-ci il üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 61 nəfər / 57 iş | 173 nəfər / 173 iş |
| Şərur Rayon Məhkəməsi | 79 / 63 | 103 / 90 |
| Babək Rayon Məhkəməsi | 13 / 13 | 82 / 82 |
| Culfa Rayon Məhkəməsi | 34 / 34 | 44 / 44 |
| Ordubad Rayon Məhkəməsi | 19 / 19 | 38 / 38 |
| Kəngərli Rayon Məhkəməsi | 30 / 28 | 35 / 35 |
| Şahbuz Rayon Məhkəməsi | 57 / 57 | 56 / 56 |
| Sədərək Rayon Məhkəməsi | 15 / 15 | 9 / 9 |

2015-ci ildə muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında 5 apellyasiya şikayətinə baxılmışdır.

Şahbuz Rayon Məhkəməsinin 2, Ordubad Rayon Məhkəməsinin 1 və Naxçıvan Şəhər Məhkəməsinin 2 qərarından verilən həmin şikayətlərə baxılaraq 1 qərar dəyişdirilmədən qüvvəsində saxlanılmış, 2 qərar dəyişdirilmiş, 2 qərar isə ləğv edilərək barəsində inzibati tənbeh tətbiq edilmiş şəxslər inzibati məsuliyyətdən azad olunmuşdur.

Muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən 2015-ci ildə inzibati xətalara dair işlər üzrə çıxarılan qərarların 0,76%-i dəyişdirildiyindən və ya ləğv edildiyindən qərarların sabitlik göstəricisi 99,24% təşkil etmişdir.

2015-ci Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 2 kassasiya şikayəti verilmiş, həmin şikayətlərə hazırda Azərbaycan Respublikası cinayət kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2015-ci ildə qəbul edilən qərarlardan dəyişdirilən və ya ləğv edilən olmadığından Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈
≈≈≈

## ***HƏRBİ KOLLEGİYADAN***

### Hərbi kollegiyanın 2015-ci ilin yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının icraatına 2015-ci ildə 19 nəfərin barəsində 17 cinayət işi üzrə apellyasiya şikayətləri daxil olmuşdur (apellyasiya şikayətlərindən 1-i buraxılmış müddətin bərpası ilə əlaqədar olmuşdur). 2014-cü ildə isə kollegiyanın icraatına 10 nəfərin barəsində 9 cinayət işi üzrə apellyasiya şikayətləri daxil olmuşdur.

Göründüyü kimi 2014-cü illə müqayisədə 2015-ci ildə hərbi kollegiyanın icraatına daxil olan işlərin sayı iki dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsində çıxarılmış ittiham hökmlərindən verilmiş apellyasiya şikayətləri cinayətlərin təsnifatına görə böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlər üzrə işlərdən olmuşdur.

Məhkumların təqsirli bilindikləri konkret əməllərə gəldikdə mübahisələndirilən hökmlərlə üç nəfər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 332.1, üç nəfər 182.2.1, 182.2.2, 182.2.3, 332.2.1, 332.2.2 və 332.2.3, bir nəfər 335.1, bir nəfər 228.1 və 120.2.4, bir nəfər 179.2.3, bir nəfər 228.1, 332.2.2 və 332.2.4, bir nəfər 177.2.3 və 177.2.4, bir nəfər 332.3, bir nəfər 177.2.3, bir nəfər 333.3, bir nəfər 351.2, bir nəfər 332.2.3, bir nəfər 150.1, 332.2.4 və 134, bir nəfər 328.1-ci maddələri ilə məhkum edilmişlər.

Barəsində apellyasiya qaydasında işə baxılmış məhkumlardan 4 nəfər gizir, 2 nəfər çavuş, 12 nəfər isə əsgər olmuşdur.

Apellyasiya şikayətlərinə baxılması zamanı məhkəmə iclasları məhkəmə istintaqı aparılmadan keçirilməklə apellyasiya şikayətlərinə baxılması nəticəsində 3 hökm dəyişdirilmiş, 13 hökm isə dəyişdirilmədən qüvvəsində saxlanılmışdır.

2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəmənin hərbi kollegiyasında baxılan cinayət işləri üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına 5 kassasiya şikayəti verilmişdir. Kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasında baxılaraq 1 qərar dəyişdirilmədən saxlanılmış, 1 qərar ləğv edilmiş, 2 kassasiya şikayəti isə hazırda baxılmaqdadır.

Beləliklə, 2015-ci ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının qərarı ləğv edildiyindən sabitlik göstəricisi 94,12% təşkil etmişdir.

*Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi*

# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı

Bülletenin hər buraxılışında Avropa Məhkəməsinin presedent xarakterli qərarları dərc olunur, insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyi açıqlanır, bununla bağlı analitik yazılara yer verilir.

Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

1. Avropa Məhkəməsinin ***"Salduz Türkiyəyə qarşı"*** *(*Böyük Palata*)* *(Ərizə №* 36391/02*)* iş üzrə 27 noyabr 2008-ci il tarixli qərarından

Maddə 6:
6-cı maddənin 3-cü bəndinin "c" yarımbəndi:
Müdafiəçi vasitəsilə özünü müdafiə etmək hüququ
Vəkillə görüşməsinə imkan yaradılmayan yetkinlik yaşına çatmayan şəxsin polisə etirafının sübut kimi istifadə olunması: ***pozuntu baş verib***

*Faktlar* – Bu işdə araşdırılan dövrdə Türkiyə qanunvericiliyi cinayət törətməkdə şübhəli bilinən şəxslərə həbsə alındıqları andan vəkilin yardımından istifadə etmək hüququ verirdi, yalnız dövlət təhlükəsizliyi məhkəmələrinin yurisdiksiyasına aid olan cinayətlər istisna təşkil edirdi. Yetkinlik yaşına çatmayan ərizəçi qanunsuz təşkilata kömək etməkdə və cinayətlərin törədilməsinə təhrikçilikdə şübhəli bilindiyinə görə həbs edilmişdi, bu cür işlərə baxılması isə dövlət təhlükəsizliyi məhkəmələrinin səlahiyyətinə aid idi. O, vəkilin iştirakı olmadan polisə ifadə verərək qanunsuz nümayişdə iştirak etdiyini və plakatdakı şüarı yazdığını etiraf etmişdi. Sonradan prokurorun və işi araşdıran hakimin qarşısında ərizəçi etirafından imtina edərək bildirdi ki, bu etiraf ondan təzyiq altında alınıb. İşi araşdıran hakim onun məhkəməyəqədər həbsdə saxlanılması barədə qərar qəbul etdi və bundan sonra vəkil onun yanına buraxıldı. O, məhkəmədə ifadəsindən imtina etdi, amma dövlət təhlükəsizliyi məhkəməsi onun polisə etirafını etibarlı sübut

kimi qəbul etdi və onu təqsirkar hesab etdi. Ərizəçi 30 ay müddətinə azadlıqdan məhrum edildi.

*Hüquqi məsələlər* – 6-cı maddənin 1-ci bəndi ilə təmin edilən ədalətli məhkəmə araşdırması hüququnun kifayət qədər praktiki və səmərəli olması üçün vəkilin yardımı, bir qayda olaraq, şübhəli şəxs polis tərəfindən ilk dəfə dindirilərkən təmin edilməlidir, bu hüququn məhdudlaşdırılmasına yol verə bilən xüsusi halların mövcudluğu istisna təşkil edir və bu cür halların mövcudluğu sübut edilməlidir. Hətta hüququn məhdudlaşdırılmasına əsas verən səbəblər olsa belə, onlar bu işdə olduğu kimi ərizəçinin hüquqlarına hüquqazidd təsir göstərməməlidir. Belə ki, vəkilin iştirakı olmadan dindirmə zamanı ərizəçinin polisə verdiyi etiraf xarakterli ifadə onun məhkum edilməsi üçün sübut qismində qəbul edilib. Hazırkı işdə ərizəçinin vəkillə görüşməsinə icazə verməkdən imtina üçün gətirilmiş əsas, yəni ərizəçinin ittiham edildiyi cinayətlərin dövlət təhlükəsizliyi məhkəmələrinin yurisdiksiyasına aid olması 6-cı maddənin tələblərinə cavab vermir. Üstəlik, dövlət təhlükəsizliyi məhkəməsi ərizəçinin polisə etirafından ərizəçinin məhkum edilməsi üçün əsas sübut kimi qəbul etmişdi, halbuki ərizəçi bu etirafın həqiqətə uyğunluğunu təkzib etmişdi. Nə sonradan vəkilin göstərdiyi yardım, nə məhkəmə araşdırmasının çəkişmə xarakteri ərizəçi polis tərəfindən həbsdə saxlanılarkən baş vermiş qüsurları düzəldə bilməzdi. Həmçinin ərizəçinin yaşı da mühüm amil idi. Çoxsaylı beynəlxalq hüquq materialları göstərir ki, yetkinlik yaşına çatmayan şəxs polis tərəfindən həbsdə saxlanılarkən vəkillə görüşməsinə imkan yaradılması mühüm əhəmiyyət daşıyır. Beləliklə, hətta fərz etsək ki, ərizəçi onun əleyhinə toplanmış sübutlara məhkəmə araşdırmasında və sonradan apellyasiya icraatında etiraz etmək imkanına malik idi, polis tərəfindən həbsdə saxlanılarkən vəkillə təmin edilməməsi onun müdafiə hüququna sonradan düzəldilməsi mümkün olmayan ziyan yetirmişdi.

Nəticə: **pozuntu baş verib** (yekdilliklə).

Maddə 41: Mənəvi ziyana görə 2.000 avro təyin edildi. Avropa Məhkəməsi bildirdi ki, məqsədəuyğun kompensasiya forması ərizəçinin işinə ölkədaxili səviyyədə yenidən baxılmasıdır.

≈ ≈ ≈

2. Avropa Məhkəməsinin ***"Hayniş Almaniyaya qarşı"*** *(*Beşinci Bölmə*)* *(Ərizə №* 28274/08*)* iş üzrə 21 iyul 2011-ci il tarixli qərarından

Maddə 10:

10-cu maddənin 1-ci bəndi: Məlumatları yaymaq azadlığı

Özəl şirkətə məxsus ahıllar evində işləyən tibb bacısının orada nöqsanların olduğu barədə şikayət verdiyinə görə işdən azad edilməsi: ***pozuntu baş verib***

*Faktlar* – Ərizəçi əsas mülkiyyətçisi federal ərazi vahidi (federal torpaq) statusuna malik Berlin şəhəri olan bir şirkətə məxsus ahıllar evində ahıllara qulluq edən tibb bacısı vəzifəsində işləyirdi. 2003-cü ilin yanvarından 2004-cü ilin oktyabrınadək o və həmkarları müdiriyyətə bildirirdilər ki, işçi çatışmazlığı səbəbindən onların iş yükü həddən artıq çox olur və göstərilən xidmətlər lazımi qaydada sənədləşdirilmir. Səhiyyə sığortası fondunun tibbi nəzarət şurası apardığı təftişdən sonra ahıllara göstərilən qulluqda ciddi nöqsanlar olduğunu, o cümlədən işçilərin çatışmadığını, qulluğun qənaətbəxş olmadığını və sənədləşdirilmənin qaneedici şəkildə aparılmadığını qeydə aldı. 2004-cü ilin noyabrında ərizəçinin vəkili şirkətə məktub yazaraq işçi çatışmazlığı problemlərini qeyd etdi və şirkətin onu gözləyən cinayət məsuliyyətindən necə yaxa qurtarmaq niyyətində olduğunu soruşdu. Şirkət məktubdakı ittihamları rədd etdikdən sonra o, cinayət işi başlanması barədə ərizə verərək şirkətdə ağırlaşdırıcı hallarla saxtakarlıqlara yol verildiyini iddia etdi. Belə ki, şirkət öz reklamlarında elan etdiyi yüksək keyfiyyətli qulluğu təmin etmir, problemləri sistematik olaraq ört-basdır etməyə çalışır və işçiləri xidmətlər barədə hesabatları saxtalaşdırmağa sövq edirdi. 2005-ci ilin yanvarında prokurorluq özünün başlamış olduğu ibtidai istintaqa xitam verdi. Elə həmin ay ərizəçi dəfələrlə xəstə olduğu üçün işə çıxmadığına görə ona işdən azad ediləcəyi barədə xəbərdarlıq edildi, işdən çıxarılma qərarı martın 31-dən qüvvəyə minməli idi. Həmkarlar ittifaqı və ərizəçinin dostları bundan sonra vərəqələr yaydılar, vərəqələrdə onun işdən azad edilməsinin "işçilərin ağzını yummaq üçün siyasi xarakterli intizam tədbiri" olduğu bildirilir və cinayət işi başlanması üçün onun verdiyi ərizə xatırladılırdı. Öncə cinayət işi başlanması üçün ərizə verilməsindən xəbərsiz olan şirkət bundan sonra ərizəçini xəbərdarlıq etmədən işdən azad etdi, şirkət vərəqələrin hazırlanmasının və yayılmasının təşəbbüskarının ərizəçi olmasından şübhələndi. Daxili məhkəmələr ərizəçinin işdən çıxarılmasına qarşı iddia tələblərini rədd edərək bu qənaətə gəldilər ki, cinayət işi başlanması üçün onun verdiyi şikayət ərizəsi onunla əmək münasibətlərinə xəbərdarlıq edilmədən xitam verilməsi üçün "tutarlı əsas" təşkil edirdi.

*Hüquqi məsələlər* – Cinayət işi başlanması üçün ərizəçi tərəfindən verilmiş şikayət ərizəsinin 10-cu maddənin tətbiq dairəsinə düşən məlumat yayma olduğunu və nəticədə onun işdən azad edilməsinin və daxili məhkəmələrin bu işlə bağlı qərarlarının onun ifadə azadlığı hüququna müdaxilə təşkil etdiyini hesab etmək üçün tam əsas vardı. Lakin bu müdaxilə qanunla

nəzərdə tutulmuşdu və digər şəxslərin nüfuzu və hüquqlarının, yəni ərizəçinin işəgötürənin işgüzar nüfuzunun və maraqlarının müdafiəsindən ibarət qanuni məqsəd daşıyırdı.

Müdaxilənin mütənasibliyi məsələsinə gəlincə, Məhkəmə hesab etdi ki, dövlət sektorunda çalışan işçilərlə əlaqədar olan "Quca Moldovaya qarşı iş" də onun müəyyən etdiyi prinsiplər və meyarlar özəl şirkətin əmək münasibətlərinə də şamil olunur və işçinin öz işəgötürəninin qanunsuz hərəkətləri və hüquqa zidd əməlləri barədə məlumat vermək hüququnu işəgötürənin öz nüfuzunu və kommersiya maraqlarını qorumaq hüququ ilə müqayisə edərkən həmin prinsip və meyarlardan istifadə edilməlidir.

Ahıl yaşlı pasiyentlərin xüsusilə əlverişsiz vəziyyətdə olduğunu və suiistifadə hallarının qarşısını almaq zərurətini nəzərə alsaq, açıqlanan məlumatlar, şübhəsiz ki, ictimai maraq doğururdu və buna görə Qucanın işində göstərilmiş birinci meyara cavab verirdi. İkinci meyara, yəni məlumatları yaymaq üçün alternativ kanallardan istifadənin mümkün olub-olmadığı məsələsinə gəlincə, ərizəçi cinayət işi başlanması üçün ərizə verdiyi vaxt iş yükünün həddən artıq çox olduğu barədə müdiriyyəti dəfələrlə məlumatlandırmış və mümkün cinayət təqibi barədə xəbərdarlıq etmişdi. Doğrudur, ilk dəfə məhz ərizəçinin cinayət işi başlanması üçün verdiyi ərizədə işəgötürənin hərəkətləri ağırlaşdırıcı hallarla saxtakarlıq kimi tövsif edilmişdi, amma ərizəçi artıq öz işəgötürənini ərizəsinin hansı faktiki hallara əsaslandığı barədə məlumatlandırmışdı və işəgötürənə sonrakı şikayətlərin səmərəli olmayacağı barədə onun mövqeyini təkzib etmək üçün yetərli sübutlar yox idi. Növbəti meyara, yəni açıqlanan məlumatların həqiqətə uyğun olub-olmadığı məsələsinə gəlincə, ərizəçinin iddialarının faktlara söykənmədiyini demək olmazdı (eyni nöqsanları tibbi nəzarət şurası da tənqid etmişdi) və onun bilərəkdən və ya məsuliyyətsizlikdən yanlış məlumatlar yaydığını göstərən heç bir dəlil yox idi.

İlkin araşdırmaya xitam verilməsi faktı heç də o demək deyildi ki, cinayət işi başlanması üçün verilmiş şikayət ərizəsinin əsasını təşkil edən iddialar lap başlanğıcdan faktlara əsaslanmırdı və qeyri-ciddi idi. Ərizəçinin hərəkətlərinin həmçinin dördüncü meyara – vicdanlı şəkildə hərəkət etmə meyarına cavab verdiyinə heç bir şübhə yox idi. Hətta cinayət işi başlanması üçün onun verdiyi şikayət ərizəsində müəyyən dərəcədə şişirtmələr və ümumiləşdirmələr olmuşdusa da, onun iddiaları bütünlüklə faktlara dair əsasdan məhrum deyildi və işəgötürənə qarşı şəxsi xarakterli səbəbsiz hücum təşkil etmirdi. Bundan başqa, məlumatların müəssisə xaricinə çıxarılmasının zəruri olduğu qənaətinə gəldikdən sonra o, dərhal mediaya müraciət etməmiş və ya

vərəqələr yaymamışdı, sadəcə olaraq cinayət işi başlanması üçün şikayət ərizəsi vermək məqsədi ilə yardım və məsləhət üçün vəkilə müraciət etmişdi. Beşinci meyara, yəni işəgötürənə dəymiş ziyana gəlincə, baxmayaraq ki, ərizəçinin iddiaları, şübhəsiz ki, işəgötürənə ziyan yetirmişdi, ahıllara stasionar qulluqdakı nöqsanlar barədə məlumatlandırılmağa olan ictimai maraq o dərəcədə mühüm idi ki, şirkətin işgüzar nüfuzunu və maraqlarını üstələyirdi. Nəhayət, sanksiyanın sərtliyinə gəlincə, ərizəçiyə əmək qanunvericiliyinə əsasən mümkün olan ən sərt sanksiya tətbiq edilmişdi. Bu sanksiya nəinki ərizəçinin karyerasına mənfi təsir göstərmiş, həm də şirkətin digər işçilərinə və bütövlükdə tibb bacısı xidmətləri göstərən işçilərə çəkindirici təsir göstərmişdi, bununla da pasiyentlərin çox zaman öz hüquqlarını müdafiə etmək imkanına malik olmadıqları və orta tibb personalının göstərilən xidmətlərdəki nöqsanlardan birinci növbədə xəbər tutduğu bir sahədə, yəni ahıllara qulluq sahəsində məlumatların yayılmasına maneə yaradılmışdı.

Beləliklə, ərizəçinin xəbərdarlıq edilmədən işdən azad olunması qeyri-mütənasib tədbir idi və daxili məhkəmələr işəgötürənin nüfuzunun müdafiəsi zərurəti ilə ərizəçinin ifadə azadlığının müdafiəsi zərurəti arasında ədalətli balansı təmin etməmişdilər.

Nəticə: **pozuntu baş verib** (yekdilliklə).

Maddə 41: Mənəvi ziyana görə 10.000 avro təyin edildi.

≈≈≈

3. Avropa Məhkəməsinin ***“Konstantin Markin Rusiyaya qarşı”*** *(*Böyük Palata*) (Ərizə №* 30078/06*)* iş üzrə 22 mart 2012-ci il tarixli qərarından

Maddə 14: Ayrı-seçkilik

Valideynlik məzuniyyəti hüquqları ilə bağlı kişi və qadın hərbçilərə münasibətdə fərqli rəftar: ***pozuntu baş verib***

*Faktlar* – Rusiya qanunvericiliyinə əsasən mülki şəxs olan atalar və analar körpə uşaqlarına qulluq etmək üçün üç illik valideynlik məzuniyyəti hüququna və həmin dövrdə aylıq müavinət almaq hüququna malikdilər. Bu hüquq aydın şəkildə hərbçi qadınlara da şamil olunur, amma hərbçi kişilər barəsində belə norma nəzərdə tutulmayıb. Silahlı Qüvvələrdə radioelektron kəşfiyyat qrupunun operatoru və boşanmış şəxs olan ərizəçi nikahdan doğulmuş üç uşağını böyütməkdən ötrü üç illik valideynlik məzuniyyəti almaq üçün müraciət etmiş, lakin müraciəti rədd edilərək daxili qanunvericilikdə bu tələb üçün heç bir əsasın olmaması bildirilmişdir. Sonradan rəisləri tərəfindən ona təxminən iki illik valideynlik məzuniyyəti verildi və şəxsi vəziyyətinin çətinliyi ilə əlaqədar olaraq maliyyə yardımı göstərildi. Bununla belə

o, Konstitusiya Məhkəməsinə şikayət ərizəsi verdi və ərizədə bildirdi ki, qanunvericilik Konstitusiyanın bərabər hüquqlara verdiyi təminata uyğun deyil. Konstitusiya Məhkəməsi bu şikayəti rədd edərək bildirdi ki, hərbi qulluqçuların valideynlik məzuniyyəti götürməsinə qoyulan qadağa hərbçilərin xüsusi hüquqi statusuna əsaslanır və çoxlu sayda hərbçilərin vəzifə başında olmamasının qarşısını almaq zərurətindən irəli gəlir. O, qeyd etdi ki, hərbi qulluqçuların öz üzərlərinə hərbçi statusu ilə bağlı öhdəlikləri könüllü götürdükləri hesab edilir və onlar uşaqlarına şəxsən qulluq etməyi qərara aldıqda hərbi xidmətlərinə vaxtından əvvəl xitam verilməsi hüququna malikdirlər. Hərbi qulluqçulara valideynlik məzuniyyəti götürmək hüququ müstəsna qaydada verilir və bu zaman hərbi qulluqda olan qadınların sayının az olması və qadınların analıqla bağlı xüsusi sosial rolu nəzərə alınır.

7 oktyabr 2010-cu il tarixli qərarda (134 saylı Məlumat bülleteni) Məhkəmənin Palatası bir səsə qarşı altı səslə bu qənaətə gəldi ki, 8-ci maddə ilə birgə götürülməklə 14-cü maddənin pozuntusu baş verməyib.

*Hüquqi məsələlər* – 8-ci maddə ilə birgə götürülməklə 14-cü maddənin pozulub-pozulmaması: Valideynlik məzuniyyəti və valideynlik müavinətləri 8-ci maddənin tətbiq dairəsinə düşür. Çünki onlar ailə həyatını təşviq edir və ailə həyatının təşkilinə qaçılmaz olaraq təsir göstərir. Buna görə də Konvensiyanın 14-cü maddəsi (8-ci maddə ilə birgə götürülməklə) bu işə tətbiq edilə bilər. Valideynlik məzuniyyəti (qadınlarda analıq məzuniyyəti) və valideynlik müavinətləri məsələsində kişilər qadınlarla oxşar vəziyyətdə idilər. Müvafiq olaraq hərbi qulluqçu kimi ərizəçi hərbçi qadınlarla analoji vəziyyətdə idi. Buna görə də Məhkəmə müəyyənləşdirməlidir ki, valideynlik məzuniyyəti hüququ məsələsində hərbçi kişilərlə hərbçi qadınlara münasibətdə fərqli rəftarın obyektiv və əsaslı səbəbi var idimi?

Bununla bağlı Məhkəmə qeyd etdi ki, hazırda gender bərabərliyinin təşviqi Avropa Şurasına üzv olan dövlətlərdə əsas məqsədlərdən biridir və cins əlamətinə görə fərqli rəftarın Konvensiyaya uyğun hesab edilə bilməsi üçün olduqca əsaslı səbəblər göstərilməlidir. Konkret olaraq ölkədəki ənənələrə, ümumi baxışlara və ya üstünlük təşkil edən sosial yanaşmalara istinadlar yetərli deyil.

Məhkəmə ərizəçinin işində fərqli rəftara, Hökumətin iddia etdiyi kimi uşaqların böyüdülməsində qadınların xüsusi sosial rolu ilə haqq qazandırılmasını qəbul etmədi. Müasir Avropa cəmiyyətləri uşaqların böyüdülməsində kişilərlə qadınların vəzifələrinin bərabər bölgüsünə doğru irəliləyib və uşaqlara qulluq etməkdə kişilərin rolu tanınıb. Hazırda Rusiya da daxil olmaqla Avropa ölkələrinin çoxunda mülki şəxs olan kişi və qadınların vali-

deynlik məzuniyyəti götürməsinə icazə verilir və xeyli sayda ölkələr bu hüququ hərbçi kişi və qadınlara da şamil ediblər. Ərizəçinin işində fərqli rəftara qadınların xeyrinə pozitiv ayrı-seçkilik kimi baxmaq olmaz, çünki bu rəftar cəmiyyətdə qadınların əlverişsiz vəziyyətini düzəltmək məqsədini daşımır. Əvəzində o, gender stereotiplərinin əbədiləşdirilməsinə səbəb olur və həm qadınların karyerasına, həm də kişilərin ailə həyatına maneə yaradır. Xülasə, cəmiyyətdə cinslərin rolunun ənənəvi bölgüsünə istinad kişilərin, o cümlədən hərbçi kişilərin valideynlik məzuniyyəti hüququndan məhrum edilməsinə haqq qazandıra bilməz.

Hökumətin bu arqumenti də Məhkəməni inandırmadı ki, valideynlik məzuniyyətinin hərbçi kişilərə şamil olunması Silahlı Qüvvələrin döyüş qabiliyyətinə və əməliyyatlarının səmərəliliyinə mənfi təsir göstərə bilər. Rusiyanın hakimiyyət orqanları ordunun əməliyyatlarının səmərəliliyinə bunun necə təsir göstərəcəyini qiymətləndirmək üçün üç illik valideynlik məzuniyyəti ala bilən və ya bunu istəyən hərbçi kişilərin sayını müəyyənləşdirməkdən ötrü heç bir xüsusi araşdırma və ya tədqiqat aparmayıb. Bununla bağlı təqdim edilən statistik məlumatlar inandırıcı deyildi. Sadəcə hərbçi kişilərin "körpə sahibi olmağa imkan verən" yaşda olması hərbçi kişilərlə hərbçi qadınlar arasında fərqli rəftara haqq qazandırmaq üçün yetərli deyildi. Bununla belə Məhkəmə razılaşdı ki, milli təhlükəsizliyin müdafiəsində ordunun mühüm əhəmiyyətini nəzərə alaraq valideynlik məzuniyyəti hüququna müəyyən məhdudiyyətlər qoyulmasına haqq qazandırmaq olar, bu şərtlə ki, onlar ayrı-seçkilik xarakteri daşımasın. Məsələn, tutduqları vəzifədən, nadir texniki ixtisaslarından və ya aktiv hərbi əməliyyatlarda iştiraklarından asılı olaraq əvəzləmələri asan olmayan kişi və ya qadın hərbçilər valideynlik məzuniyyəti hüququndan məhrum edilə bilərlər. Lakin Rusiyada valideynlik məzuniyyəti hüququndan məhrum edilmə ordudakı vəzifəsindən, konkret halda əvəzlənməsinin mümkünlüyündən asılı olmayaraq avtomatik olaraq bütün kişilərə tətbiq edilirdi. Məhkəmənin fikrincə, cins əlamətinə görə müəyyən insan qrupuna tətbiq edilən bu cür ümumi və avtomatik məhdudiyyətlər dövlətə verilən qiymətləndirmə sərbəstliyinin hüdudlarından kənara çıxır.

Ərizəçi radioelektron kəşfiyyat qrupunun operatoru qismində qulluq edirdi və buna görə də kişi və ya qadın hərbçilərlə əvəzlənə bilərdi. Bu da önəmlidir ki, buna ekvivalent olan vəzifələri onun olduğu hərbi bölmədə qadın hərbçilər tuturdu və ondan fərqli olaraq qadınlar qeyd-şərtsiz üç illik məzuniyyət hüququna malik idilər. Beləliklə, ərizəçi əsaslı və ya obyektiv səbəb olmadan cins əlamətinə görə ayrı-seçkiliyə məruz qalmışdı. Cins əlamətinə görə ayrı-seçkiliyin fundamental əhəmiyyətini nəzərə alsaq, onun

hərbi kontrakt imzalaması ayrı-seçkiliyə məruz qalmamaq hüququndan imtina təşkil etmirdi.

Nəticə: **pozuntu baş verib** (bir səsə qarşı on altı səslə).

Maddə 34: Ərizəçi şikayət etdi ki, ərizəsi Avropa Məhkəməsinin icraatında olduğu müddətdə öz müraciəti olmadan prokuror onun işi ilə bağlı məlumat almaq üçün onun evinə gəlib. Məhkəmə qeyd etdi ki, cavabdeh dövlətin hakimiyyət orqanlarının ərizəçinin Avropa Məhkəməsinin icraatındakı işi ilə əlaqədar onunla birbaşa təmasa girməsi prinsipcə məqsədəuyğun deyil. Lakin hazırkı işdə ərizəçinin ailə vəziyyəti barədə son məlumatları almaq üçün prokurorun onun evinə gəlməsinin ərizəçini ərizəsini geri götürməyə və ya dəyişdirməyə sövq etmək məqsədi daşıdığını və ya buna səbəb olduğunu göstərən heç bir sübut yox idi. Buna görə də dövlət orqanlarını ərizəçinin fərdi şikayət hüququnu həyata keçirməsinə maneə yaratmaqda təqsirləndirmək olmazdı.

Nəticə: 34-cü maddənin pozuntusu baş verməyib (üç səsə qarşı on dörd səslə).

Maddə 41: Mənəvi ziyana görə 3.000 avro təyin edildi.

≈≈≈

4. Avropa Məhkəməsinin ***“Elberte Latviyaya qarşı”*** *(Ərizə №* ***61243/08****)* iş üzrə 13 yanvar 2015-ci il tarixli qərarından

Maddə 3: Ləyaqəti alçaldan rəftar

Ərizəçinin razılığı və ya xəbəri olmadan ölmüş ərinin bədənindən toxuma götürülməsi ilə bağlı ərizəçinin emosional iztirabı: ***pozuntu***

Maddə 8

Maddə 8-1: Şəxsi həyata hörmət

Daxili qanunvericilikdə ölmüş bədəndən toxuma götürülməsi ilə bağlı ən yaxın qohumların razılığı məsələsində aydınlığın olmaması: ***pozuntu***

*Faktlar* – Ərizəçinin ərinin avtomobil qəzasında ölməsindən sonra məhkəmə ekspertizası mərkəzində yarılması zamanı onun bədənindən toxumalar götürülmüş və Almaniyada yerləşən bir farmaseftika şirkətinə bio-implant hazırlanması və Latviyaya geri qaytarılması üçün göndərilmişdir. Yarılmadan sonra meyit ərizəçiyə göndərildiyində onun ayaqları bir-birinə birləşmiş şəkildə idi. Ərizəçi toxuma götürülməsi faktından yalnız iki il sonra geniş yayılmış, meyitlərdən qanunsuz orqan və toxuma götürülməsi faktları ilə bağlı cinayət işi açıldığı zaman xəbər tutmuşdur. Bununla belə, müddətlər ötdüyünə görə heç kim cinayət təqibinə məruz qalmamışdır.

*Hüquqi məsələlər* – Maddə 8: Dövlət orqanlarının ərizəçiyə ölmüş ərinin bədənindən toxuma götürülməsi ilə bağlı öz fikrini ifadə etməsinə hüquqi və praktiki şərait yaratmaması ərizəçinin şəxsi həyat hüququna müdaxilədir.

Müdaxilənin qanuniliyinə gəlincə, əsas məsələ daxili qanunvericiliyin kifayət qədər dəqiqliklə formulə edilib-edilməməsi və müvafiq inzibati tənzimləmə olmadıqda özbaşınalığa qarşı adekvat müdafiə təmin edib-etməməsidir.

*Birinci aspektlə bağlı* dövlət orqanları daxili qanunvericiliyin mahiyyəti ilə bağlı fikir ayrılığı içərisində idilər: məhkəmə ekspertiza mərkəzi və təhlükəsizlik polisi hesab edirdi ki, Latviya hüquq sistemində "güman edilən razılıq" sistemidir, müstəntiqlər isə götürülmənin yalnız (sağ ikən) verdiyi razılığı və ya qohumlarının razılığı əsasında icazə verildiyi "məlumatlı razılıq" konsepsiyasıdır. Təhlükəsizlik polisinin müstəntiqlərin təfsirini qəbul etdiyi və ərizəçinin razılığının tələb olunduğunu hesab etdiyi zaman, artıq cinayət təqibi üçün zamanı ötürmüşdülər.

Dövlət orqanlarının özləri arasında belə bir fikir ayrılığının olması onun kifayət qədər aydın olmamasının göstəricisidir. Latviya hüququ toxuma götürülməsi ilə bağlı razılıq verməsinə və ya etiraz etməsinə icazə verən hüquqi çərçivəyə malik olsa da, mütəxəssislərin və ya digər orqanların sözügedən məsələ ilə bağlı bu hüquqa uyğun gələn öhdəliklərinin və mülahizə səlahiyyətlərinin dairəsini müəyyən etməmişdir. Məhkəmə bununla bağlı qeyd edir ki, müvafiq Avropa və beynəlxalq sənədlər, yaxın qohumların fikirlərinin ağlabatan şəkildə alınması prinsipinə böyük əhəmiyyət verirlər. Qanunilik prinsipi dövlətlərdən qanunun tətbiqi üçün hüquqi və praktiki şəraiti təmin etməsini tələb edir. Lakin ərizəçi ən yaxın qohum qismində hüquqlarını necə və nə zaman istifadə edəcəkləri barədə məlumatlandırılmamış və ona heç bir izahat verilməmişdir.

*Daxili qanunverciliyin özbaşınalığa qarşı adekvat müdafiə təmin edib-etməməsi məsələsi ilə bağlı* toxuması götürülmüş şəxslərin sayı nəzərə alınaraq qohumların arzularını ifadə etmək hüquqlarının mütəxəssislərin öz təşəbbüsləri ilə toxuma götürməklə bağlı malik olduqları geniş diskresiya ilə tarazlaşdırmaq üçün əhəmiyyətli olsa da, edilməmişdi. Bu sahədə hər hansı inzibati və ya hüquqi tənzimləmənin olmaması səbəbi ilə ərizəçi ərinin toxumalarının götürülməsi ilə bağlı arzusunu ifadə etmək hüququnu necə həyata keçirməli olduğunu öngörə bilməmişdir.

Beləliklə, ərizəçinin şəxsi həyat hüququna müdaxilə, Konvensiyanın 8-ci maddəsinin 2-ci bəndi mənasında qanunla nəzərdə tutulmuş olmamışdır.

Nəticə: **pozuntu** *(yekdilliklə)*.

Maddə 3 (maddi aspekt): ərizəçinin iztirabı, yaxın ailə üzvünün ölümü ilə bağlı olan acının verdiyi iztirabdan kənara çıxan ölçü və xarakterə malik idi. Ərizəçi hansı orqan və ya toxumaların götürülməsinin, götürülmə qaydası və məqsədi ilə bağlı uzun müddət qeyri-müəyyənlik, əzab və streslə üzləşmişdir. Ümumi cinayət işinin başlanmasının ardından ərizəçi ərinin bədənin dəfn üçün geri göndərildiyi zaman ayaqlarının bir-birinə bağlanma səbəbləri ilə bağlı narahatlıqla üzbəüz qoyulmuşdur. Əslində ərizəçi götürülən toxumanın xarakteri və həcmi barədə yalnız Avropa Məhkəməsi qarşısındakı prosesində məlumat almışdır.

Razılıq tələbi ilə bağlı tənzimləyici çərçivədə aydınlığın olmaması, ərinin bədəni üzərində müdaxilə xarakterli aktların həyata keçirildiyi və dövlət orqanlarının özlərinin cinayət işi zamanı meyitlərin orqan və toxumalarının götürülməsinin qanuni olub-olmaması ilə bağlı razılığa gələ bilməməsi nəzərə alınarsa, bu, ərizəçinin iztirabını yalnız artıra bilərdi.

Nəhayət, müddətin ötməsi və dövlət orqanlarını aktlarının qanunsuz olub-olmaması ilə bağlı qeyri-müəyyənlik heç bir cinayət təqibinin olmamasına səbəb olmuşdur. Ərizəçi beləliklə, öz şəxsi həyatının çox həssas bir aspekti ilə, yəni ölmüş ərinin bədənindən toxuma götürülməsinə razılıq və ya etirazla bağlı şəxsi hüquqlarının pozulmasına görə heç bir əvəz almamışdır.

Spesifik sahə olan orqan və toxuma transplantasiyası sahəsində qəbul olunmuşdur ki, insan bədəninə ölümdən sonra da hörmətlə davranılmalıdır. Belə ki, İnsan Hüquqları və Bioetika haqqında Konvensiya və Əlavə Protokol da daxil olmaqla bəzi beynəlxalq sazişlər yaşayan və ya ölmüş orqan və toxuma donorlarının hüquqlarının müdafiəsi üçün hazırlanmışdır. Bundan əlavə, insan ləyaqətinə hörmət edilməsi Konvensiyanın mahiyyətinin bir hissəsini təşkil edir. Beləliklə, ərizəçinin məruz qaldığı əzab ləyaqəti alçaldan rəftara bərabər olmuşdur.

Nəticə: **pozuntu** *(yekdilliklə)*.

Maddə 41: mənəvi ziyana görə EUR 16,000.

**Mənbə:** *Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

## Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin tətbiqi zamanı qarşıya çıxan bəzi məsələlər və onların həllinə dair təkliflər

Hüquqi dövlət quruculuğunun başlıca şərtlərindən biri yeni dövrün tələblərinə cavab verən məhkəmə-hüquq islahatlarının reallaşdırılmasıdır. Ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində aparılan islahatların davamı kimi ölkəmizdə 2011-ci ilin yanvar ayından inzibati məhkəmələr yaradılmış, inzibati mübahisələrə dair işlər üzrə icraatın hüquqi əsaslarını müəyyən edən Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi (bundan sonra - AR İPM) tətbiq olunmağa başlamışdır.

Artıq inzibati məhkəmələrin fəaliyyətə başlamasından beş ildən artıq müddət keçmiş və bu sahədə müəyyən təcrübə əldə edilmişdir. Lakin ümumilikdə bu institut yeni olduğundan AR İPM-in tətbiqi ilə bağlı təcrübədə müəyyən çətinliklər ortaya çıxır.

AR İPM-in bəzi müddəalarına dair aşağıdakı məsələlər ətrafında öz fikir və mülahizələrimizi paylaşmaq istərdik.

AR İPM-in iddia müddətini tənzimləyən 38.1-ci maddəsində göstərilir ki, ***"mübahisələndirmə haqqında iddia inzibati aktın təqdim (elan) olunduğu vaxtdan, şikayət instansiyasına şikayət verildiyi hallarda isə şikayətə dair qəbul olunan inzibati aktın təqdim olunduğu vaxtdan 30 gün müddətində qaldırıla bilər"***.

Əgər şəxs səhvən inzibati aktı mülki məhkəmə icraatı qaydasında mübahisələndirirsə, buna müvafiq olaraq məhkəmə iddia ərizəsini geri qaytarırsa, bununla əlaqədar qəbul edilmiş qərardad müvafiq yuxarı instansiya məhkəməsində mübahisələndirilirsə, təbii ki, sonda inzibati aktdan şikayət verilməsi üçün qanunla nəzərdə tutulmuş 30 günlük müddət keçmiş olur. Bu zaman şəxs yenidən İnzibati-İqtisadi Məhkəməyə iddia verirsə, müddətin keçməsi əsasına görə iddia mümkünsüz sayılmalıdırmı?

AR İPM-də yalnız prosessual müddətin bərpasından söhbət gedir. İddia müddətinin bərpası Mülki Məcəllənin 382-ci maddəsində nəzərdə tutulmuşdur və bununla əlaqədar İPM-də hər hansı göstəriş yoxdur, yalnız Məcəllənin 1.2-ci maddəsində göstərilir ki, bu Məcəllə ilə başqa qayda müəyyən

edilmədiyi və bu Məcəllə ilə nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında Mülki Prosessual Məcəllənin müddəaları tətbiq oluna bilər. Eyni zamanda həmin Məcəllənin 22.2-ci maddəsində bir daha xatırlanır ki, müddətlərlə bağlı bu fəslin müddəaları nəzərə alınmaqla Mülki Prosessual Məcəllə ilə müəyyən olunmuş qaydalar tətbiq olunur. Mülki Məcəllənin 375-ci maddəsinə əsasən hüququn müdafiəsi haqqında tələb iddia müddətinin keçməsindən asılı olmayaraq məhkəmə tərəfindən baxılmağa qəbul edilir. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır. Həmin qaydalar inzibati icraat zamanı da tətbiq oluna bilərmi? Hesab edirik ki, İPM-də nəzərdə tutulan iddia müddəti ilə Mülki Məcəllədə göstərilən iddia müddəti eyniləşdirilə bilməz. Belə ki, Mülki Məcəlləyə əsasən tələb iddia müddətinin keçməsindən asılı olmayaraq məhkəmə tərəfindən qəbul edilməlidir, yalnız iddia müddətinin tətbiqi barədə ərizə verildiyi halda iddia müddətinin keçməsi əsasına görə iddia rədd edilə bilər. İPM-in tələbinə əsasən isə iddianın mümkünlüyünün yoxlanılması nəzərdə tutulur. Çünki iddia müddətinin keçməsi iddianın mümkün sayılmamasına səbəb olur. Belə ki, iddia müddətinin ötürülməsi inzibati iddianın mahiyyəti üzrə baxılmasına imkan vermir. Ona görə də müddət keçibsə və müddətin bərpa edilməsi barədə ərizə verilməmişdirsə, iddia mümkünsüz sayılmalıdır. İPM-in 24-cü maddəsinin tələbinə əsasən şəxsin ərizəsinə əsasən onun təqsiri olmadan buraxılmış müddət bərpa oluna bilər. Hesab edirik ki, məhkəmə müddətin üzrlü səbəbdən keçməsini sübut edən sənədlər olduğu halda da öz təşəbbüsü ilə müddəti bərpa edib iddianı mümkün sayaraq işə baxa bilməz. Ancaq məhkəmə iddiaçıya üzrlü səbəbdən buraxılan müddətin hansı qaydada bərpa edilə biləcəyini izah etməklə ona yardım etməlidir. Mülki icraat zamanı isə məhkəmənin müddətin bərpa edilməsi ilə əlaqədar tərəfə yardım etməsi çəkişmə prinsipinin pozulması kimi qiymətləndirilə bilər. İPM-də buraxılmış prosessual müddətin bərpa edilməsi barədə ərizənin müddətə əməl olunmasına maneə olan hallar aradan qalxdığı gündən 15 gün ərzində verilməsi nəzərdə tutulmuşdur. Məsələn, yuxarıda qeyd edildiyi kimi şəxs səhvən ümumi məhkəmədə tələb irəli sürübsə, həmin tələb üzrə qəbul edilən qərarın qanuni qüvvəyə minməsindən sonra, yəni müddətə əməl olunmasına maneə olan belə halda 15 gün ərzində inzibati iddia qaldırarsa, müddətin bərpa edilməsi ilə əlaqədar ərizə də verməlidir.

Həmin müddətdən sonra müraciət edilməsi müddətin üzrsüz səbəbdən buraxılması kimi qiymətləndirilə bilər.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, əgər maraqlı şəxs inzibati aktdan subordinasiya qaydasında inzibati aktı qəbul etmiş inzibati orqanın tabe olduğu yuxarı inzibati orqana, yəni şikayət instansiyasına "İnzibati icraat haqqında" Qanunun 73-cü maddəsinin tələblərinə müvafiq olaraq şikayət verirsə və həmin şikayət üzrə bir ay müddətində qərar qəbul edilmədiyi halda şikayətin verildiyi vaxtdan 35 gün keçəndən sonra məhkəmədə iddia qaldırırsa, müddətin keçməsi əsasına görə məhkəmə iddianı mümkünsüz saya bilərmi?

İPM-in 39.1-ci maddəsinə əsasən inzibati aktın qəbul olunmasına dair müraciət və ya şikayət instansiyasına verilmiş şikayətlə bağlı müvafiq inzibati orqan tərəfindən qanunla müəyyən olunmuş müddətdə və kifayət qədər əsaslar olmadan qərar qəbul edilmədiyi hallarda, iddiaçı yalnız həmin müraciətin edildiyi və ya şikayətin verildiyi vaxtdan 35 gün sonra inzibati aktın qəbulu ilə bağlı iddia ərizəsi ilə məhkəməyə müraciət edə bilər. Bu 35 günlük müddət inzibati aktın təqdim edilmiş sayılması ilə əlaqədar 5 günlük (bax: "İnzibati icraat haqqında" Qanunun 62.2-ci maddəsi) və inzibati orqanların qərar qəbul etməsi ilə bağlı 30 günlük (bax: "İnzibati icraat haqqında" Qanunun 52.1-ci maddəsi) müddətin cəmindən irəli gəlir. İddianın 35 günlük müddətin başa çatmasından əvvəl qaldırılmasına yol verilmir, çünki inzibati orqan qərar qəbul etmək üçün qanunla ona verilmiş müddətdən istifadə edə bilməlidir. Yalnız həmin müddətin sona çatmasından sonra verilmiş iddia mümkün sayılır. İPM-in 35.3-cü maddəsinə əsasən iddianın mümkün sayılmaması barədə qərardad o zaman qəbul edilir ki, iddia qeyd olunan 35 günlük müddətin bitməsindən qabaq verilmiş olsun. 35 günlük müddətin keçməsindən sonra isə, hərəkətsizliklə bağlı iddianın qaldırılması üçün heç bir müddət məhdudiyyəti qanunda nəzərdə tutulmayıb.

Təcrübədə qarşılaşılan digər bir məsələ İPM-in 81.2-ci maddəsi ilə bağlıdır. Belə ki, maddəyə əsasən inzibati məhkəmə icraatının iştirakçıları (tərəflər və məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslər) yalnız onların tələblərinin təmin olunmadığı hallarda şikayət vermək hüququna malikdirlər. ***Əgər birinci instansiya məhkəməsində zəruri cəlb olunmalı olan üçüncü şəxs cəlb edilmirsə, onun məhkəmənin qərarından şikayət vermək hüququ vardırmı? Əgər vardırsa, bu necə təmin olunmalıdır?*** Qeyd olunduğu kimi həmin maddədə yalnız məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslərin tələblərinin təmin olunmadığı hallarda şikayət vermək hüquqları nəzərdə tutulub. Məhkəmə icraatına cəlb olunmayan üçüncü şəxslərin onların qanuni

maraqlarına toxunan məhkəmə qərarından şikayət verə bilməmələri onların məhkəmə müdafiəsi hüququnun pozulmasına gətirib çıxara bilər. İPM-in 28-ci maddəsinə əsasən iş üzrə məhkəmə qərarı qanuni qüvvəyə minənə qədər və ya iş yuxarı instansiya məhkəməsinin icraatında olduğu müddətdə, məhkəmə qərarının digər şəxslərin qanunla qorunan maraqlarına toxunacağı hallarda, məhkəmə xidməti vəzifəsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya həmin şəxslərin vəsatəti əsasında onları üçüncü şəxs qismində inzibati məhkəmə icraatına cəlb edə bilər. Məhkəmə qərarının qəbul edildiyi, lakin qanuni qüvvəyə minmədiyi dövrdə məhkəmə üçüncü şəxslərin icraata cəlb edilməli olduğu qənaətinə gəldikdə, həmin məhkəmə qərarının ləğv edilməsi və işə mahiyyəti üzrə baxılmasının təzələnməsi barədə qərardad qəbul edir.

Buradan belə aydın olur ki, məhkəmə qərarının qanuni qüvvəyə minməsindən sonra məhkəmənin üçüncü şəxsləri icraata cəlb etmək səlahiyyəti yoxdur və bu hüququn ümumi prinsipləri baxımından da düzgün yanaşmadır. Nəzərə almaq lazımdır ki, prosesə cəlb edilməyən şəxslər öz hüquqlarının pozulduğunu, bir qayda olaraq, məhkəmə qərarının icrası mərhələsində öyrənmiş olurlar və həmin mərhələdə artıq məhkəmə qərarı qanuni qüvvəsini almış olur. ***Bəs, belə olan halda prosesə cəlb edilməyən şəxslər öz hüquqlarını hansı qaydada müdafiə etməlidir?*** Bu kimi halda iki versiyanı nəzərdən keçirmək olar. Birincisi, üçüncü şəxsin ümumi qaydada birinci instansiya məhkəməsində iddia qaldırması yolu ilə. İkincisi, üçüncü şəxsin birinci instansiya məhkəməsinin qərarından apellyasiya şikayəti verməsi və müddətin üzrlü səbəbdən, yəni onun prosesə cəlb olunmalı olduğu halda cəlb olunmaması və məlumatsız qalması səbəbindən buraxıldığı barədə ərizə təqdim etməsi vasitəsilə.

Birinci variant ona görə qəbulolunan deyil ki, məhkəmənin eyni məsələ ilə bağlı artıq qanuni qüvvədə olan qərarı var və yeni qərarın qəbulu eyni məhkəmə tərəfindən eyni məsələ ilə bağlı iki bir-birinə zidd qərarın mövcud olmasına gətirib çıxara bilər. Digər tərəfdən məhkəmə İPM-in 100-cü maddəsini, yəni yeni açılmış hallarla bağlı maddəni də ona görə tətbiq edə bilmir ki, bu barədə ərizə vermək hüququ yalnız proses iştirakçılarına şamil olunur. Fikrimizcə, ikinci variant, yəni "müddətin bərpası barədə ərizə və apellyasiya şikayətinin verilməsi" ən məqbul, hüquqi və məntiqi baxımdan ən ağlabatan versiya kimi nəzərdən keçirilə bilər.

İPM-də mübahisə yaradan məsələlərdən biri də birinci instansiya məhkəməsinin qərarlarından verilən şikayətlə bağlıdır. Məcəllədə göstərilmişdir ki, məhkəmə şikayətin daxil olduğu vaxtdan beş gün müddətində həmin şikayəti mübahisə ilə bağlı işin materialları ilə birlikdə müvafiq apellyasiya ins-

tansiya məhkəməsinə göndərməlidir. Məcəllənin 86-cı maddəsinə əsasən şikayət daxil olduqdan sonra birinci instansiya məhkəməsi apellyasiya şikayəti verən şəxs tərəfindən formal tələblərə əməl olunub-olunmamasını, yəni şikayətin apellyasiya şikayəti verən şəxs və onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmasını, apellyasiya şikayəti verən şəxsin adının, soyadının, atasının adının və ünvanının göstərilməsini, barəsində şikayət verilən məhkəmə qərarı və ya qərardadının tarixi və nömrəsi barədə məlumatların göstərilməsini, dövlət rüsumunun ödənilməsini, şikayətin verildiyi apellyasiya instansiya məhkəməsininin göstərilməsini, şikayətə əlavə edilən sənədlərin siyahısının olmasını yoxlamalıdır. Məcəllədə məhkəmənin xidməti vəzifəsi kimi göstərilmişdir ki, göstərilən tələblərə əməl olunmaması ilə bağlı formal xətaların aradan qaldırılmasında məhkəmə apellyasiya şikayəti verən şəxsə yardım etməlidir. Birinci instansiya məhkəməsi tərəfindən apellyasiya şikayəti ilə bağlı formal tələblərin yoxlanılması üçün müəyyən edilmiş beş günlük müddət yetərli olmadığından bir sıra problemlərin yaranmasına gətirib çıxarır. Belə ki, həmin müddət ərzində apellyasiya şikayəti verən şəxsin məhkəməyə dəvət olunması və müəyyən hərəkətlər edilməsi praktiki cəhətdən mümkün olmur və məhkəmə şikayət verən şəxsə yardım etmək vəzifəsini həyata keçirə bilmir və belə vəziyyətdə apellyasiya şikayətinin geri qaytarılması nəzərdə tutulmadığından birinci instansiya məhkəməsi imperativ qaydada müəyyən olunduğu kimi beş gündən gec olmayaraq apellyasiya şikayətini apellyasiya instansiya məhkəməsinə göndərir. Bundan başqa, həmin problem kassasiya şikayəti verilərkən formal xətalar mövcud olduğu halda da meydana çıxır və yuxarıda göstərilən səbəblər üzündən formal xətalar aradan qaldırılmasa belə, İPM-in 95.3-cü maddəsinin tələbinə əsasən apellyasiya instansiya məhkəməsi şikayətin daxil olduğu vaxtdan 5 gün ərzində həmin şikayəti mübahisə ilə bağlı işin materialları ilə birlikdə Ali Məhkəməyə göndərməyə borcludur. Mülki Prosesssual qanunvericilikdən fərqli olaraq İnzibati Prosessual qanunvericilikdə kassasiya şikayətinin də qaytarılması nəzərdə tutulmamışdır. Qanunvericiliyin tələbinə əsasən kassasiya şikayəti onu verən şəxs (onun qanuni nümayəndəsi və ya nümayəndəsi) və şikayəti tərtib etmiş vəkil tərəfindən imzalanmalıdır. İPM-in 31.2-ci maddəsinə görə inzibati məhkəmə icraatında proses iştirakçılarının vəkillə və səlahiyyətli nümayəndə ilə təmsil olunmaq hüququ vardır. İnzibati proses iştirakçılarının vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaitləri olmadığından həmin şəxslərin yazılı müraciətləri əsasında vəkilin prosesdə iştirakının təmin olunması, onun iş materialları ilə tanış olub şikayəti tərtib etməsi üçün qanunla müəyyən edilmiş beş günlük

müddət yetərli olmadığından problemlər yaranır. Hesab edirik ki, birinci və apellyasiya instansiya məhkəməsi beş günlük müddət ərzində aradan qaldırılması mümkün olan formal xətaları imkan daxilində aradan qaldırmalı və həmin müddətə əməl etməklə şikayəti aidiyyəti üzrə göndərməlidir. Birinci instansiya məhkəməsinin qərarından verilmiş şikayət üzrə apellyasiya məhkəməsi də apellyasiyanın əsaslarını yoxlayarkən formal xətaların aradan qaldırılması üçün şikayəti verən şəxsə yardım etməli, lazım gəldikdə müəyyən vaxt təyin etməli və bu vaxt ərzində nöqsanlar aradan qaldırılmadıqda şikayəti qəbul etməkdən imtina etməlidir.

Təcrübədə inzibati icraatda prosessual nümayəndəlik institutu ilə bağlı da problemlər yaranır. Mülki Prosessual Məcəllənin 74.2-ci maddəsi nümayəndəyə verilmiş bəzi səlahiyyətlərin xüsusi olaraq etibarnamədə göstərilməsi qaydasını müəyyən etsə də İPM-in 31.2-ci maddəsində göstərilir ki, prosessual nümayəndə onun nümayəndəliyini təsdiq edən sənədi məhkəməyə təqdim etdiyi andan məhkəmə icraatı ilə bağlı bütün məhkəmə aktları və sənədləri bu Məcəllə ilə müəyyən olunmuş qaydada ona təqdim olunur və həmin nümayəndə təmsil etdiyi şəxsin adından bütün prosessual hərəkətləri həyata keçirə bilər. Maddənin məzmunundan belə çıxır ki, nümayəndəliyini təsdiq edən sənədi təqdim edən nümayəndə xüsusi göstəriş olmadan özü istədiyi kimi təmsil etdiyi şəxsin adından bütün prosessual hərəkətləri həyata keçirə bilər və onun hərəkəti sonradan təmsil edilən tərəfindən mübahisələndirilə bilməz. İPM-də işin nəticəsinə təsir edən iddiaçının iddiadan imtina etməsi və ya cavabdehin iddianı qəbul etməsi, tərəflərin barışıq sazişi bağlamaqla hüquqi mübahisənin barışıq yolu ilə nizama salınması kimi hüquqları nəzərdə tutulmuşdur. Nümayəndənin belə səlahiyyətlərinin etibarnamədə göstərilmədiyi hallarda təmsil etdiyi şəxsin adından həmin prosessual hərəkətləri etməsi sonradan təmsil edilən tərəfindən məhkəmə qərarının mübahisələndirilməsinə səbəb ola bilər. Belə hallarda MPM-in 74.2-ci maddəsinə istinad oluna bilərmi? Hesab edirik ki, işin nəticəsinə təsir göstərdiyinə görə bu səlahiyyətlərdən istifadə olunacağı bəyan edildikdə həmin səlahiyyətlərin nümayəndəyə verilməsini təsdiq edən etibarnamə mütləq tələb edilməlidir.

İPM-in məhkəmə baxışının hədlərini müəyyən edən 52-ci maddəsində göstərilir ki, məhkəmə iddia ərizəsinin ifadə tərzi ilə bağlı olmasa da iddia tələbindən kənara çıxmağa haqlı deyildir. İddia ərizəsinin ifadə tərzi dedikdə, nə başa düşülür? Bunun özü də təcrübədə çətinliklər yaradır. Alman hakim, "Azərbaycanda məhkəmə və hüquq islahatlarının dəstəklənməsi" layihəsinin rəhbəri olmuş xanım Anya Königsmannın "Azərbaycanda inzibati məhkəmə

icraatı" adlı kitabında bu məsələyə qismən aydınlıq gətirilir: *"...nəzərə almaq lazımdır ki, məhkəməyə müraciət edənlər, bir qayda olaraq, hüquqi cəhətdən təcrübəsiz və iddiaları vasitəsilə istədikləri məqsədə necə nail olmağı izah edə bilməyən şəxslərdir. Onlar ayrı-ayrı iddia növlərini və onların şərtlərini tanımırlar. Yəni tərəflərin yardıma ehtiyacı nə qədər çox olarsa, məhkəmənin yardım etmək vəzifəsi də bir o qədər olmalıdır. Burada həlledici əhəmiyyət kəsb edən məqamlardan biri də hakimin öz bitərəfliyini qorumasıdır. Yəni o, yardım edərkən yalnız tərəflərdən birinin xeyrinə fəaliyyət göstərdiyi təəssüratını yaratmamalıdır. Eyni zamanda, məhkəmə təqdim edilmiş bir neçə alternativ qərar variantlarından birini seçmək imkanını tərəflərin əlindən almamalıdır. Çünki dispozitivlik prinsipi tərəfləri "prosesin ağaları" elan edir. Əlbəttə, tərəflərin təqdim etdiyi ərizələrin ifadə tərzi məhkəmə üçün məcburi olmasa da, məhkəmə iddia tələbinin həcmini aşa bilməz (bax: İPM-in 52-ci maddəsi)."* Buradan belə aydın olur ki, "ifadə tərzi" anlayışı daha çox iddianın məhkəmədə qaldırılması zamanı istifadə olunan "iddia növü"nü nəzərdə tutur. Ola bilsin ki, şəxs nəzərdə tutduğu iddianı düzgün iddia növü kimi təqdim etməyib, bu zaman məhkəmə həmin şəxsə iddiasını düzgün iddia növü ilə əvəz etməyi təklif edə bilər, lakin məhkəmə şəxsdən iddia tələbini dəyişməyi tələb edə bilməz və ya işə baxan zaman iddia tələbindən kənara çıxa bilməz.

Məcəllənin 2.2.7-ci maddəsinə görə inzibati məhkəmə icraatı qaydasında baxılan iddialardan biri kimi inzibati mübahisələrin həlli ilə bağlı əmlak tələbi, habelə inzibati orqanların qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbi təşkil edir. Həmin maddənin də tətbiqində müəyyən çətinliklər yaranır, belə ki, inzibati mübahisələrin həlli ilə bağlı əmlak tələbi dedikdə, nə başa düşülməli olduğu aydın deyil. Həmçinin burada aydın deyil ki, iddiaçı vurulmuş ziyana görə kompensasiyanın ödənilməsini özünün qanunsuz hesab etdiyi inzibati aktlar, hərəkət və ya hərəkətsizlik nəticəsində əmələ gəlməsini güman etdikdə tələb edə bilər, yoxsa inzibati orqanların qərarları (inzibati aktları), hərəkət və ya hərəkətsizliyi məhkəmə tərəfindən qanunsuz sayıldıqdan sonra bu barədə iddia qaldıra bilər. "İnzibati icraat haqqında" Qanunun 64.2-ci maddəsində göstərilmişdir ki, inzibati akt qanunla müəyyən olunmuş qaydada geri çağırılana, ləğv edilənə, dəyişdirilənə, qüvvədə olma müddəti qurtardığına və ya başqa səbəbə görə qüvvədən düşmüş hesab edilənə qədər hüquqi qüvvəsini saxlayır və hüquqi cəhətdən etibarlı sayılır. Lakin təcrübədə inzibati aktı mübahisələndirmədən onun tətbiqi nəticəsində vurulmuş ziyanın kompensasiyanın tələbi ilə əlaqədar iddialar

mövcuddur. Maraqlıdır ki, bir sıra hüquq ədəbiyyatlarında inzibati orqanların qanunsuz qərarları və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyanın əvəzinin ödənilməsinə dair iddia öhdəliyin icrası haqqında iddianın xüsusi forması sayılır. Buradan belə aydın olur ki, inzibati orqanların qanunsuz qərarları və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyanın əvəzinin ödənilməsinə dair iddianın qaldırıla bilməsi üçün zərərçəkmiş şəxs vurulmuş zərərin əvəzinin ödənilməsinə dair ərizə ilə əvvəlcə müvafiq inzibati orqana müraciət etməlidir. Şəxs inzibati orqanın məsuliyyət daşıdığından imtina etməsindən müvafiq məhkəmədə öhdəliyin icrası (kompensasiyanın ödənilməsi) haqqında iddia qaldıra bilər.

İnzibati mübahisələrin məhkəmələrdə baxılması zamanı əsas problem yaradan məqamlardan biri də prosessual normanın tətbiqi ilə bağlı məsələdir. Hüquq münasibətlərinə inzibati məhkəmə icraatında baxılan zaman İPM-də mövcud olmayan normaların əvəzinə Mülki Prosessual Məcəllənin normalarının tətbiqi də aktual məsələ olaraq qalmaqdadır. İPM-in 1.2-ci maddəsində göstərilmişdir ki, bu Məcəllə ilə başqa qayda müəyyən edilmədiyi və bu Məcəllə ilə nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında Mülki Prosessual Məcəllənin müddəaları tətbiq oluna bilər. Bu zaman İPM-in 1.2-ci maddəsinə istinad edib Mülki Prosessual Məcəllənin müddəalarını tətbiq edərkən inzibati məhkəmə icraatının fərqli prinsiplərini mütləq nəzərə almaq lazımdır. Məsələn, inzibati məhkəmə icraatında iddia ərizəsinin qaytarılması nəzərdə tutulmamışdır. Məcəllənin 46.3-cü maddəsinə görə iddia ərizəsi iddia ərizəsinin məzmununa aid tələblərə cavab vermədikdə hakim və ya məhkəmə tərkibinə sədrlik edən hakim, yaxud məhkəmə tərkibinə sədrlik edən hakim tərəfindən təyin olunmuş hakim (məruzəçi hakim) iddia ərizəsini həmin tələblərə uyğunlaşdırmaq üçün ağlabatan müddət təyin edir. Məhkəmənin təyin etdiyi müddətdə iddiaçı yol verilmiş formal xətaları aradan qaldırmadıqda məhkəmənin hansı prosessual hərəkət etməsi məcəllədə nəzərdə tutulmamışdır. Hesab edirik ki, belə halda inzibati məhkəmə icraatının prinsipləri baxımından çıxış edərək iddia mümkün sayılmamalıdır.

İnzibati icraat zamanı ən vacib məsələlərdən biri məhkəmə aidiyyətinin düzgün müəyyən edilməsidir. Təcrübədə bəzi hallarda aidiyyətlə əlaqədar ümumi məhkəmələrlə inzibati-iqtisadi məhkəmə arasında anlaşılmazlıq yaranır. Konstitusiya Məhkəməsinin bir sıra qərarlarında ("İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.1 və 2.0.2-ci maddələrinin şərh edilməsinə dair 06 oktyabr 2012-cil tarixli, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinin ikinci

hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanının razılığı" müddəasının şərh edilməsinə dair 13 iyun 2013-cü il tarixli, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2-ci və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 25-ci maddələrinin inzibati xətalar haqqında işlər üzrə icraata aidiyyəti baxımından şərh edilməsinə dair 04 oktyabr 2012-ci il tarixli, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 87.2-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.1-ci maddələrinin şərh edilməsinə dair 04 aprel 2012-ci il tarixli, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 2.1-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2 və 2.2.1-ci maddələrinin şərh edilməsinə dair 19 may 2014-cü il tarixli Qərarlarında) aidiyyətlə bağlı şərh verilmiş, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" və "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" 10 aprel 2015-ci il tarixli 4 və 5 nömrəli qərarında həmin məsələlərə aydınlıq gətirilmişdir. Ona görə də inzibati mübahisələrin məhkəmə aidiyyətinin düzgün müəyyən olunması, aidiyyət qaydaları ilə bağlı qanunvericiliyin tələblərinə riayət edilməsi vətəndaşların hüquq və mənafelərinin daha peşəkar və keyfiyyətli şəkildə müdafiə olunmasına və bununla bağlı ədalət mühakiməsinin daha səmərəli şəkildə həyata keçirilməsinə mühüm təsir göstərir.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**


1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi. Bakı, Qanun, 2015.
2. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: "Qanun", 2014.
3. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası. S.Kərimov, G.Vəliyeva, Bakı: "SeNa", 2006
4. Azərbaycanda inzibati məhkəmə icraatı. A.Köniqsmann, Bakı, 2013
5. http://inzibati.az
   (Azərbaycanda inzibati icraata dair məlumat və sənədlər)

# HAKİMLƏRİN MİLLİ VƏ BEYNƏLXALQ QURUMLARINDA

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2015-ci ildə baxdığı bir sıra işlər haqqında

Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qərarları ilə hakimlərin müntəzəm olaraq tanış edilməsini Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri kimi müəyyən etmişik. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı qərarların digər hakimlərin nəzərinə çatdırılmasının zəruriliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının vacibliyi hakimlərin statusuna aid beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bu yolla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq prinsipi təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı sayında 2015-ci ildə Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2015-ci ildə Məhkəmə-Hüquq Şurası tərəfindən 16 hakim barəsində intizam icraatı başlanılmış, həmin intizam icraatları üzrə 13 hakimin intizam məsuliyyətinə cəlb olunması haqqında qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 12 may, 10 iyul, 03 sentyabr və 18 dekabr 2015-ci il tarixli iclaslarında qəbul olunmuşdur[1]. Həmin qərarlar əsasında intizam icraatı başlanılan hakimlərdən 2 nəfər Bakı şəhəri Nizami Rayon Məhkəməsinin, 1 nəfər Gəncə Ağır Cinayətlər Məhkəməsinin, 3 nəfər Bakı Apellyasiya Məhkəməsinin (3 hakim barəsində 1 icraat), 2 nəfər Ağcabədi Rayon Məhkəməsinin, 1 nəfər Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin və 1 nəfər Mingəçevir Şəhər Məhkəməsinin hakimlərinin barəsində töhmət verilmişdir. Barəsində intizam icraatı başlanılmış 2 nəfər hakimə (Bakı şəhəri Nizami Rayon Məhkəməsinin və 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi) irad tutulmuşdur.

---

[1] Bu sərlövhənin hazırlanması zamanı Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 12 may, 10 iyul, 03 sentyabr və 18 dekabr 2015-ci il tarixli qərarlarına istinad olunmuşdur.

Həmin qərarlar əsasında barəsində intizam icraatı başlanılan 1 nəfər hakimin (Şamaxı Rayon Məhkəməsinin hakiminin) iş yerinin dəyişdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinə müraciət olunmuşdur.

İntizam icraatının başlanılmasına 7 halda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, 1 halda Azərbaycan Respublikası Ali Məhkəməsinin, 1 halda Bakı Apellyasiya Məhkəməsinin, 1 halda Gəncə Apellyasiya Məhkəməsinin və 1 halda isə vətəndaşın müraciətləri əsas olmuşdur.

4 halda intizam icraatının başlanılmasına səbəb əmək və icra intizamının pozulması, 3 halda işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması, 3 halda isə əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması və eyni zamanda korrupsiya hüquqpozması, 1 halda isə korrupsiya hüquqpozması olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 10 iyul 2015-ci il tarixli qərarlarından görünür ki, intizam icraatlarına dair işlərə baxılarkən Bakı Apellyasiya Məhkəməsinin hakimləri S.Mirzəyevin, F.Qasımovun və C.Ramazanovun qanunvericiliyin tələblərinin dəfələrlə və kobudcasına pozulması, Ağcabədi Rayon Məhkəməsinin hakimləri X.Fərhadovun və E.Quliyevin əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması və korrupsiya hüquqpozması; 03 sentyabr 2015-ci il tarixli qərarlarından görünür ki, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi A.Rzayevin korrupsiya hüquqpozması, Mingəçevir Rayon Məhkəməsinin hakimi H.Mirzəliyevin isə əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması; 18 dekabr 2015-ci il tarixli qərarından görünür ki, Şamaxı Rayon Məhkəməsinin hakimi T.Hüseynovanın əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması və korrupsiya hüquqpozması əsas olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 10 iyul 2015-ci il tarixli qərarından görünür ki, Ağcabədi Rayon Məhkəməsinin hakimi Etibar Bəhrəm oğlu Quliyev fəaliyyətində prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermiş, hakim kimi ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı üzərinə düşən vəzifələrin icrasına laqeyd münasibət göstərmişdir. Onun işlərə baxan zaman süründürməçiliyə yol verməsi vətəndaşların haqlı narazılığına və şikayətlərinə səbəb olmuşdur. Onun tərəfindən prosessual qanunvericiliyin tələblərinin, xüsusilə də məhkəmə qərarlarının və iclas protokollarının hazırlanması barədə müddəaların pozulması adi hala çevrilmişdir. Belə ki, hakim Etibar Quliyevin sədrliyi ilə baxılmış 26 mülki iş üzrə (1523/13, 134/14, 564/14, 771/14, 772/14, 1229/14, 1234/14, 1237/14, 1240/14, 1278/14, 1282/14, 1291/14, 1295/14, 1307/14, 1309/14, 1311/14, 1312/14, 1314/14, 1323/14, 1335/14, 1343/14, 1352/14, 1354/14,

1369/14, 1406/14 və 1431/14 nömrəli) Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (bundan sonra – AR MPM) 263-cü maddəsinin tələbləri kobudcasına pozularaq müşavirə otağında ayrıca akt şəklində qəbul edilməli olan məhkəmə qərardadları (15 yanvar, 11 fevral, 29 aprel, 05 iyun, 16 sentyabr, 19 sentyabr, 22 sentyabr, 23 sentyabr, 25 sentyabr, 30 sentyabr, 02 oktyabr və 03 oktyabr 2014-cü il tarixli) 23 oktyabr 2014-cü il tarixə kimi ötən uzun müddət ərzində tərtib olunmamışdır.

Bundan əlavə, 180/14, 902/14, 976/14, 988/14, 990/14, 994/14, 1065/14, 1221/14, 1273/14, 1305/14 və 1518/14 nömrəli mülki işlər üzrə qəbul edilmiş müvafiq olaraq 17 fevral, 27 iyun, 10 iyul, 11 iyul, 19 sentyabr, 23 sentyabr və 30 sentyabr 2014-cü il tarixli (işin icraata qəbul edilməsi, məhkəmədə baxılmağa hazırlanması və ya məhkəmə baxışına təyin edilməsi haqqında) qərardadlar hakim tərəfindən 23 oktyabr 2014-cü il tarixə kimi ötən 1-8 aydan artıq müddət ərzində imzalanmamışdır.

Hakim E.Quliyevin icraatında olmuş işlər üzrə prosessual hərəkətlərin gedişi və nəticələrinin protokollaşdırılmasına dair qanunvericiliyin tələblərinin pozulması kütləvi xarakter almış, məhkəmə iclas protokollarının hazırlanması uzun müddət ərzində təmin edilməmiş və ya onlar imzalanmamışdır.

AR MPM-in 387.2.7-ci maddəsinin tələbinə əsasən işdə məhkəmə iclasının protokolunun olmaması və ya imzalanmaması prosessual normaların kobud pozuntusu hesab edilməsinə baxmayaraq, hakim Etibar Quliyevin sədrliyi ilə baxılmış 50 iş (1311/13, 1317/13, 1331/13, 1422/13, 1424/13, 1460/13, 1463/13, 1474/13, 1523/13, 134/14, 564/14, 771/14, 772/14, 1038/14, 1229/14, 1234/14, 1237/14, 1240/14, 1243/14, 1254/14, 1258/14, 1260/14, 1268/14, 1269/14, 1278/14, 1282/14, 1291/14, 1295/14, 1307/14, 1309/14, 1311/14, 1312/14, 1314/14, 1323/14, 1335/14, 1343/14, 1352/14, 1354/14, 1369/14, 1406/14, 1431/14, 1448/14, 1467/14, 1469/14, 1477/14, 1481/14, 1483/14, 1507/14, 1530/14 və 1717/12 nömrəli) üzrə müxtəlif tarixli iclas protokolları 23 oktyabr 2014-cü il tarixə kimi ötən uzun müddət ərzində tərtib edilməmişdir.

Hakim E.Quliyevin sədrliyi ilə baxılmış 63/13, 79/13, 85/13, 12/14, 32/14, 84/14, 87/14, 89/14 və 91/14 nömrəli cinayət işləri üzrə müvafiq olaraq 02 oktyabr, 12 noyabr, 27 noyabr 2013, 22 yanvar, 16 aprel, 03 sentyabr, 17 sentyabr, 24 sentyabr və 01 oktyabr 2014-cü il tarixli iclas protokolları 23 oktyabr 2014-cü il tarixə kimi tərtib edilməməklə cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyinə dair Azərbaycan Respublikası Cinayət Pro-

sessual Məcəlləsinin (bundan sonra – AR CPM) 51-ci maddəsinin tələbləri kobudcasına pozulmuşdur.

Onun tərəfindən 564/14, 771/14, 772/14, 976/14, 988/14, 990/14, 994/14, 1059/14, 1221/14, 1273/14 və 1523/13 nömrəli mülki işlər üzrə müvafiq olaraq 22 may, 06 iyun, 18 iyul, 24 iyun, 10 iyul, 11 iyul, 30 iyul, 29 avqust, 02 sentyabr, 19 sentyabr və 23 sentyabr 2014-cü il tarixli iclas protokolları 23 oktyabr 2014-cü il tarixə kimi ötən (1-4 aydan artıq) müddət ərzində imzalanmamışdır.

Bundan əlavə, hakim E.Quliyevin sədrliyi ilə baxılmış 20 mülki iş (771/14, 772/14, 1233/14, 1234/14, 1305/14, 1410/14, 1452/14, 1454/14, 1458/14, 1473/14, 1475/14, 1489/14, 1494/14, 1496/14, 1514/14, 1520/14, 1522/14, 1524/14, 1526/14 və 1538/14 nömrəli) üzrə müvafiq olaraq 06 may, 25 avqust, 03 sentyabr, 04 sentyabr, 17 sentyabr, 25 sentyabr, 30 sentyabr, 01 oktyabr, 02 oktyabr və 04 oktyabr 2014-cü il tarixli iclas protokolları məhkəmə iclas katibi tərəfindən 23 oktyabr 2014-cü il tarixə kimi ötən müddət ərzində imzalanmamışdır. Nəticədə maraqlı şəxslərin məhkəmə iclas protokolları ilə tanış olmaq, onlara dair yazılı qeydlər vermək hüquqları kobud şəkildə pozulmuşdur.

Hakim E.Quliyevin icraatında olmuş 12/14 nömrəli cinayət işinə baxılarkən cinayət prosessual qanunvericiliyin yetkinlik yaşına çatmamış şahidin dindirilməsi qaydalarına dair 228.4-cü maddəsinin tələbləri pozularaq 16 yaşına çatmayan şahidə ifadə verməkdən imtinaya, ifadə verməkdən boyun qaçırmaya və bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbərdar edilmişdir.

Hakim E.Quliyevin sədrliyi ilə baxılmış bir sıra işlər üzrə məhkəmə bildirişlərinin tərəflərə göndərilməsi barədə prosessual qanunvericiliyin tələblərinə əməl olunmamışdır. Məsələn, 1406/14 və 1431/14 nömrəli mülki işlər üzrə məhkəmə bildirişləri məhkəmə baxışına 3 gün qalmış göndərilməklə, 50/14 və 134/14 nömrəli mülki işlər üzrə isə ümumiyyətlə, göndərilməməklə AR MPM-in 138.3-cü (işdə iştirak edən şəxslərin öz müdafiəsini hazırlamağa və məhkəməyə vaxtında gəlmələrinə imkan yaratmaq üçün məhkəmə bildirişi onlara məhkəmə iclasının və ya müvafiq prosessual hərəkətin tarixinə ən azı 10 gün qalmış verilir) maddəsinin tələbləri pozulmuşdur.

Onun tərəfindən vətəndaş S.Hüseynovanın əmlak tələbinə dair 2-469/14 nömrəli mülki iş üzrə AR MPM-in işlərə baxılmasının müddətinə dair 172.1-ci maddəsinin tələbləri pozulmaqla 3 ay 12 gündən sonra iddianın baxılmamış saxlanılması barədə qərardad çıxarılmışdır.

Hakim E.Quliyev icraatında olmuş 2-1237/14 nömrəli mülki iş üzrə 25 avqust 2014-cü il tarixdə məhkəməyə daxil olmuş iddianı təmin etmək haqqında ərizə üzrə 1 ay 13 gün sonra 08 oktyabr 2014-cü il tarixdə qərardad çıxarmaqla AR MPM-in 159.1-ci (iddianı təmin etmək haqqında ərizə mübahisəni həll edən hakim tərəfindən daxil olduğu gündən sonra təxirə salınmadan baxılır) maddəsinin tələblərini pozmuşdur.

Onun tərəfindən icraatı dayandırılmış 2-297/14 nömrəli mülki iş üzrə ekspertiza rəyi daxil olduqdan sonra icraatın təzələnməsi barədə qərardad çıxarılmaması nəticəsində AR MPM-in 258.1-ci maddəsinin tələbləri pozulmuşdur.

Həmçinin, E.Quliyevin sədrliyi ilə baxılmış çoxsaylı işlər üzrə məhkəmə qərarlarının prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə tərəflərə göndərilməsi təmin edilməmişdir. Belə ki, 1311/13, 1317/13, 1331/13, 1256/14, 1258/14, 1260/14, 1262/14, 1264/14, 1266/14, 1268/14, 1269/14, 1318/14, 1320/14, 1361/14, 1375/14, 1381/14, 1399/14, 1401/14, 1422/13, 1424/13, 1433/14, 1460/13, 1463/13, 1465/14, 1467/14, 1469/14, 1474/13, 1477/14, 1479/14, 1481/14, 1483/14, 1485/14, 1487/14, 1498/14, 1501/14, 1505/14, 1507/14, 1509/14, 1511/14, 1512/14, 1530/14 və 1536/14 nömrəli mülki işlər üzrə məhkəmə əmrlərinin surətlərinin 3 gün müddətində borcluya göndərilməsi təmin edilməmişdir. Buna baxmayaraq, həmin aktlar icraya yönəldilmişdir. Nəticədə AR MPM-in 281.3 və 282-ci maddələrinin tələbləri pozulmuş və borclunun məhkəmə əmrinə qarşı vaxtında etiraz etmək hüquqları məhdudlaşmışdır.

Bundan əlavə, 1213/13, 36/14, 72/14, 101/14, 157/14, 168/14, 176/14, 195/14, 233/14, 237/14, 239/14, 330/14 və 1038/14 nömrəli mülki işlər üzrə məhkəmə qətnamələrinin surətləri tərəflərə göndərilmədiyi halda, onlar icraya yönəldilmişdir. Nəticədə AR MPM-in 227.3-cü (məhkəmənin qətnaməsi işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməlidir) və 360-cı (apellyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən 1 ay müddətində verilə bilər) maddələrinin tələbləri pozulmuş, həmçinin tərəflərin apellyasiya şikayəti vermək hüquqları məhdudlaşmışdır. Eyni qanun pozuntuları 1213/13, 1484/13, 36/14, 50/14, 53/14, 72/14, 101/14, 122/14, 134/14, 141/14, 157/14, 168/14, 170/14, 174/14, 176/14, 195/14, 223/14, 225/14, 227/14, 229/14, 231/14, 233/14, 237/14, 239/14, 294/14, 330/14, 340/14, 469/14, 980/14, 1038/14, 1070/14, 1237/14, 1414/14, 1416/14, 1435/14, 1516/14 və 1528/14 nömrəli mülki işlər üzrə də təkrarlanmışdır.

Prosessual qanunvericiliyin tələbləri hakim E.Quliyev tərəfindən işlərin apellyasiya instansiyası məhkəməsinə göndərilməsi zamanı da pozulmuşdur. Məsələn, onun sədrliyi ilə baxılmış 32/14, 44/14, 46/14, 47/14, 52/14, 139/14, 403/14, 463/14, 473/14, 501/14, 514/14, 518/14, 534/14, 543/14, 545/14, 662/14, 666/14, 670/14, 672/14, 677/14, 682/14, 684/14, 800/14, 904/14, 973/14, 1074/14 və 1348/14 nömrəli mülki işlər üzrə AR MPM-in 364-cü (apellyasiya şikayəti birinci instansiya məhkəməsinə daxil olduqdan sonra qanunla müəyyən edilmiş prosessual hərəkətlər edilərək ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə apellyasiya şikayətinin verilmə müddəti bitdikdən sonra 7 gün müddətində apellyasiya instansiyası məhkəməsinə göndərilir) maddəsinin tələbləri pozulmuş, həmin işlər yuxarı instansiya məhkəməsinə gec göndərilməklə süründürməçiliyə yol verilmişdir.

Hakim E.Quliyevin icraatında olmuş bir sıra işlər üzrə məhkəmə qərarlarının icraya yönəldilməsi zamanı qanunvericiliyin tələbləri pozulmuşdur. Belə ki, 1-12/14 və 1-68/14 nömrəli cinayət işləri üzrə çıxarılmış və qanuni qüvvəyə minmiş 17 sentyabr və 01 sentyabr 2014-cü il tarixli hökmlər 23.10.2014-cü il tarixə kimi ötən 1 aydan artıq müddət ərzində icraya yönəldilməməklə AR CPM-in 506-cı maddəsinin tələbləri pozulmuşdur.

Bundan əlavə, 2-1315/13, 2-104/14, 2-790/14, 2-1078/14, 2-1264/14 və 2-1465/14 nömrəli mülki işlər üzrə 04 noyabr, 11 noyabr 2013, 23 may, 21 iyul və 07 sentyabr 2014-cü il tarixlərdə qanuni qüvvəyə minmiş məhkəmə qərarları icraya gecikdirilməklə yönəldilmiş, nəticədə AR MPM-in 233-cü və 234-cü maddələrinin tələbləri pozulmuşdur.

Yuxarıda qeyd edilən hərəkətləri ilə hakim E.Quliyev həmçinin, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı (hüquq və azadlıqların məhkəmə təminatı) və 127-ci (ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri), "Məhkəmələr və hakimlər haqqında" Qanunun 99-cu (hakimlərin vəzifələri), "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 9.3.12-ci (fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq) maddələrinin tələblərini pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 18 dekabr 2015-ci il tarixli qərarından görünür ki, Şamaxı Rayon Məhkəməsinin hakimi Təranə Hüseynova xidməti vəzifələrinin icrasına laqeyd münasibət bəsləyərək Azərbaycan Respublikası Konstitusiyasının 125-ci, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 3 və 23-cü maddələrinin tələblərini kobudcasına pozmuş, məhkəmədə işin təşkilini və məhkəmə aparatının işinə rəhbərliyi lazımi səviyyədə həyata keçirməmiş, icra və əmək intizamına əməl edilməsini təmin etməli

olduğu halda, özü kobud qanun pozuntularına yol verməklə bu sahədə çoxsaylı qanunsuzluqlara şərait yaratmışdır. Hakim T.Hüseynova fəaliyyətində prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermiş, hakim kimi ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı üzərinə düşən vəzifələrin icrasına laqeyd münasibət göstərmişdir. Belə ki, hakim T.Hüseynovanın sədrliyi ilə baxılmış işlərin öyrənilməsi zamanı müəyyən olunmuşdur ki, 125 mülki işin təxminən hər ikisindən biri üzrə mülki işin məhkəmədə baxılmağa hazırlanması vəzifəsinə laqeyd münasibət bəslənmiş, AR MPM-in 165-166-cı maddələrinin tələblərinə zidd olaraq 24 mülki iş üzrə işin məhkəmədə baxılmağa hazırlanması haqqında qərardadları isə ümumiyyətlə, tərtib edilməmişdir.

Bundan əlavə, hakim 2012-2014-cü illərdə baxılmış və işin həllinə dair qətnamə (qərardad) çıxarılmış 38 mülki iş üzrə işin məhkəmədə baxılmağa hazırlanması haqqında qərardadları 22.04.2015-ci il tarixə kimi ötən müddət ərzində imzalamamışdır.

Hakim T.Hüseynova AR MPM-in 171-ci maddəsinin tələblərinə zidd olaraq 125 mülki işin 34-ü və ya təxminən hər dördündən biri üzrə müstəqil akt şəklində işin məhkəmə iclasında baxılmağa təyin edilməsi haqqında qərardad çıxarmamışdır. Buna baxmayaraq, həmin işlərin həllinə dair yekun məhkəmə aktları qəbul edilmişdir.

Hakim T.Hüseynova AR MPM-in qərardadların çıxarılması qaydasından bəhs edən 263-cü maddəsinin tələblərini kobudcasına pozaraq öyrənilmiş 125 mülki işin 25-i üzrə işin məhkəmə baxışına təyin edilməsi haqqında qərardadları 22.04.2015-ci il tarixə kimi ötən müddət ərzində imzalamamışdır.

Məhkəmə aktlarının imzalanması qaydalarının pozulmasına digər növ qərardadların çıxarılmasında da yol verilmişdir. Belə ki, 430/12, 182/13, 347/13, 385/13, 592/13, 646/14, 728/14, 1004/14 və 1060/14 nömrəli mülki işlər üzrə işin həllinə dair müstəqil akt şəklində qəbul olunmuş məhkəmə qərardadları hakim T.Hüseynova tərəfindən müvafiq olaraq 4 ay – 2 il 6 aydan artıq müddət ərzində imzalanmamışdır.

Mülki prosessual qanunvericiliyin qətnamənin tərtib olunmasından bəhs edən 219-cu maddəsinin tələbləri 286/13, 326/13, 398/13, 543/13, 584/13, 699/13, 110/14, 776/14, 8209/14, 861/14, 511/14, 738/14, 829/14, 834/14, 1143/14, 1175/14, 1183/14, 75/15, 77/15 və 341/15 nömrəli mülki işlər üzrə kobudcasına pozularaq hakim T.Hüseynovanın sədrliyi ilə 2013-2014-cü illərdə və 2015-ci ilin fevral ayında çıxarılmış 20 qətnamə 22.04.2015-ci il tarixə kimi ötən müddət ərzində imzalanmamışdır.

Mülki prosessual qanunvericiliyin protokolun tərtib edilməsinin məcburiliyindən bəhs edən müddəaları kobudcasına pozularaq öyrənilmiş 104 mülki iş üzrə işin məhkəmədə baxılmağa hazırlamaq haqqında qərardadların qəbulu ilə bağlı protokollar tərtib olunmamışdır.

Qeyd edilən 125 mülki işin təxminən hər üçündən biri üzrə hazırlıq iclaslarının protokolları uzun müddət ərzində tərtib olunmamış və ya imzalanmamışdır. Məsələn, 36 mülki iş üzrə hazırlıq iclaslarının protokolları 22.04.2015-ci il tarixə kimi ötən müddət ərzində tərtib olunmamışdır.

Bundan əlavə, 34 mülki iş üzrə hazırlıq iclaslarının protokolları 2 ildən artıq, 25 protokol isə 1 il 4 aydan artıq müddət ərzində hakim T.Hüseynova (bir çox hallarda həmçinin məhkəmə iclasının katibi) tərəfindən imzalanmamışdır.

Müəyyən edilmişdir ki, AR MPM-in 270-272-ci maddələrinin tələbləri kobudcasına pozularaq 125 mülki işin təxminən hər üçündən ikisi üzrə məhkəmə baxışlarının iclas protokolları 22.04.2015-ci il tarixə kimi ötən müddət ərzində tərtib olunmamış və ya hakim tərəfindən imzalanmamışdır. Belə ki, 32 mülki iş üzrə məhkəmə baxışlarının iclas protokolları həmin müddət ərzində tərtib olunmamış, 57 iş üzrə isə çoxsaylı iclas protokolları hakim T.Hüseynova (bir çox hallarda həmçinin məhkəmə iclasının katibi) tərəfindən imzalanmamışdır. Nəticədə, kobud qanun pozuntularına yol verilməklə yanaşı, işdə iştirak edən şəxslərin protokollar barədə yazılı qeydlər vermək hüquqları da məhdudlaşmışdır.

Hakim T.Hüseynova 286/13, 385/13, 398/13 və 622/14 nömrəli mülki işlər üzrə AR MPM-in 172-ci maddəsinin (ərizə məhkəməyə daxil olduğu vaxtdan sonra 3 aydan gec olmayan müddətdə işə baxılmalı və həmin işin həllinə dair qətnamə və ya qərardad çıxarılmalıdır) tələblərini pozaraq qətnamə və ya qərardadları bu işlərin məhkəmədə qeydə alınmasından müvafiq olaraq 5 ay 25 gün, 5 ay 10 gün, 4 ay 27 gün və 3 ay 26 gün sonra qəbul etmişdir.

Bundan əlavə, işlərin baxılması və həll edilməsi müddətlərindən bəhs edən müddəaların tələbləri 513/11, 456/14, 793/14 və 1076/14 nömrəli mülki işlər üzrə də pozularaq müvafiq olaraq ötən 2 il, 11 ay, 8 ay və 5 aydan artıq müddət ərzində hakim tərəfindən onların həllinə dair qətnamə və ya qərardad çıxarılmamışdır.

Hakim T.Hüseynova tərəfindən qətnamənin tərtibindən bəhs edən AR MPM-in 227.3-cü maddəsinin tələbləri pozularaq 235/13, 390/13, 753/14, 755/14, 834/14, 965/14, 867/14 və 870/14 nömrəli mülki işlər üzrə qəbul edilmiş qətnamələrin surətləri işdə iştirak edən şəxslərə onların tərtib olun-

masından müvafiq olaraq 3 ay 6 gün, 2 ay 21 gün, 2 ay 13 gün, 2 ay 7 gün, 2 ay 5 gün, 1 ay 24 gün, 1 ay 17 gün və 24 gün sonra göndərilmişdir.

Bir çox hallarda qanuni qüvvəyə minmiş məhkəmə qətnamələrinin vaxtında icraya yönəldilməsi təmin edilməmişdir. Məsələn, 735/14, 753/14, 834/14, 870/14, 925/14 və 1045/14 nömrəli mülki işlər üzrə 02.09.2014-cü, 14.10.2014-cü, 03.10.2014-cü, 23.10.2014-cü, 04.11.2014-cü və 11.11.2014-cü il tarixlərdə çıxarılmış qətnamələr onların qanuni qüvvəyə minməsindən müvafiq olaraq 4 ay, 3 ay və 2 ay sonra icra üçün göndərilmişdir.

AR MPM-in 364-cü maddəsinin tələblərinə zidd olaraq 19/13, 235/13, 390/13, 460/13, 18/14, 58/14, 131/14 nömrəli mülki işlər üzrə apellyasiya şikayətləri şikayətin verilmə müddəti bitdikdən müvafiq olaraq 2 ay, 1 ay 15 gün, 1 ay və 22 gün sonra apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir. Eyni pozuntulara digər çoxsaylı mülki işlər üzrə də yol verilmişdir.

Məhkəmə qərardadlarından verilmiş şikayətə baxılması və onların apellyasiya instansiyası məhkəməsinə göndərilməsi qaydaları da çoxsaylı (328/13, 417/13, 110/14 nömrəli və digər) mülki işlər üzrə pozulmuşdur.

Müəyyən edilmişdir ki, Şamaxı Rayon Məhkəməsində AR CPM-in 51.7-ci və 98.2-ci maddələrinin tələbləri də kütləvi şəkildə pozulmuşdur. Məsələn, 34/11, 39/13, 42/14, 43/14, 44/14, 45/14, 46/14 və 50/14 nömrəli cinayət işləri üzrə hazırlıq iclaslarının və məhkəmə baxışlarının çoxsaylı iclas protokollarını hakim T.Hüseynova (bir çox hallarda həm də məhkəmə iclasının katibi) tərəfindən 20.04.2015-ci il tarixə kimi ötən uzun müddət ərzində imzalamamışdır.

Qərarların çıxarılması qaydasına dair AR CPM-in 300 və 321-ci maddələrinin tələbləri kobudcasına pozularaq 51/12, 39/13, 2/14, 39/14, 40/14, 41/14, 42/14, 43/14, 45/14, 46/14, 50/14, 3/15, 6/15, 7/15, 14/15 və 17/15 nömrəli cinayət işləri üzrə "təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında" qərarlar hakim T.Hüseynova tərəfindən imzalanmadan elan edilmişdir.

AR CPM-in 301.2 və 301.2.8-ci maddələrinin tələblərinə zidd olaraq öyrənilmiş cinayət işlərinin heç birində, o cümlədən 39/13, 2/14, 13/14, 41/14, 43/14, 46/14, 50/14 və 7/15 nömrəli cinayət işləri üzrə təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında qərarlarda "təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçi qismində işə buraxılması və ya təqsirləndirilən şəxsə müdafiəçinin təyin edilməsi" barədə qərarlar göstərilməmişdir.

Birinci instansiya məhkəməsinin hökm və ya qərarlarının hakimlər tərəfindən imzalanmaması kobud qanun pozuntusu hesab olunmasına baxmaya-

raq, Şamaxı Rayon Məhkəməsində cinayət mühakimə icraatı üzrə öyrənilmiş 31 cinayət işinin 21-i üzrə ittiham hökmləri hakim T.Hüseynova tərəfindən 22.04.2015-ci il tarixə kimi ötən uzun müddət ərzində imzalanmamışdır. Məsələn, 1/12, 2/12 və 43/12 nömrəli cinayət işləri üzrə 4 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş R.Soltanov, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum olunmuş N.Babayev və Q.Bağırov barəsində çıxarılmış, müvafiq olaraq 05.05.2012-ci, 17.05.2012-ci və 29.10.2012-ci il tarixli ittiham hökmləri 2 il 5 aydan artıq müddət ərzində hakim T.Hüseynova tərəfindən imzalanmamışdır.

Bundan əlavə, 2013-cü ildə 3/13 və 39/13 nömrəli cinayət işləri üzrə A.Rəşidov və Ə.Əsədov barəsində, 2014-cü ildə 2/14, 7/14, 13/14, 32/14, 39/14, 41/14, 42/14, 43/14, 44/14, 45/14, 46/14, 47/14 və 50/14 nömrəli cinayət işləri üzrə R.İsmayılov, C.Qubatov, E. Mustafayev, A.Şahməmmədov, K.Hümbətov, A.Qurbanov, R.Əmirli, S.Adgözəlov, A.Albayev, A.Həsənov, Q.Şəfiyev və M.Alıyev barəsində, 2015-ci ildə 3/15, 5/15 və 7/15 nömrəli cinayət işləri üzrə A.Pənahov, N.Piriyev və E.Həşimov barəsində çıxarılmış ittiham hökmlərinin (cinayət işinə tikilmiş nüsxələrin) heç biri 20.04.2015-ci il tarixə kimi ötən müddət ərzində hakim T.Hüseynova tərəfindən imzalanmamışdır. Nəticədə həmin işlər üzrə AR CPM-in 352-ci və 356.1-ci maddələrinin tələbləri kobudcasına pozulmuşdur.

Bundan başqa, cinayət prosessual qanunvericiliyinin prinsip və tələblərinə zidd olaraq 51/12, 55/12, 8/13, 1/14, 40/14 və 6/15 nömrəli cinayət işləri üzrə cinayət işinin icraatına xitam verilməsinə və təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsinə dair qərarlar, 8/13, 1/14, 32/14, 42/14, 44/14, 7/15 və 14/15 nömrəli cinayət işləri üzrə təqsirləndirilən şəxslərin və ya şahidlərin məcburi gətirilməsi barədə qərarlar, həmçinin 34/11, 2/12, 43/14, 46/14, 7/15 və 24/15 nömrəli cinayət işləri üzrə müxtəlif məzmunlu (cinayət işinin icraatının dayandırılması, icraatın təzələnməsi, həbs olunmuş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi, müdafiəçinin təyin edilməsi və axtarış elan edilməsi haqqında) qərarlar hakim T.Hüseynova tərəfindən imzalanmamışdır.

Müdafiəçinin hüquqi yardımının haqqının ödənilməsi məhkəmə məsrəflərinə aid olmasına baxmayaraq, hakim T.Hüseynovanın sədrliyi ilə çıxarılmış (o cümlədən 2/14, 13/14, 43/14, 44/14, 46/14, 47/14, 7/15 nömrəli) hökmlərin heç birinin nəticəvi hissələrində həmin məsələlər əks etdirilməmişdir. Nəticədə AR CPM-in 197.1.2-ci və 353.4.10-cu maddələrinin də tələbləri pozulmuşdur.

AR CPM-in məhkəmə məsrəflərinin tutulmasından bəhs edən 198.3-cü maddəsinin tələbləri pozularaq bir çox hökmlərin nəticəvi hissələrində ekspertiza xərclərinin məhkumların hər birindən təqsirlilik dərəcəsi, təyin olunmuş cəzanın ciddiliyi və əmlak vəziyyəti nəzərə alınmaqla deyil, "müştərək qaydada" tutulması qərara alınmışdır.

AR CPM-in 353.4. və 353.4.13-cü maddələrinin tələblərinə zidd olaraq hakim T.Hüseynovanın sədrliyi ilə çıxarılmış ittiham hökmlərinin heç birinin nəticəvi hissələrində hökmün qanuni qüvvəyə minməsi qaydasının izahı göstərilməmişdir.

İcra intizamına riayət edilməsində ciddi problemlər aşkar edilmişdir. Məhkəmənin hökmü ilə 1 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum olunmuş K.Hümbətov barəsindəki 27.10.2014-cü il tarixli hökm onun qanuni qüvvəyə minməsindən 5 ay sonra icraya yönəldilmişdir.

Hökmlərin icrasına dair cəzaçəkmə müəssisələrindən və ya icra şöbəsindən daxil olmuş çoxsaylı məlumatlar müvafiq cinayət işlərinin materiallarına əlavə edilmədən və xronoloji qaydada tikilmədən ötən müddət ərzində lüzumsuz material kimi dəftərxanada saxlanılmışdır.

Bundan əlavə, müəyyən edilmişdir ki, 32/14, 39/14, 40/14, 41/14, 5/15 nömrəli cinayət işləri üzrə məhkəmənin hazırlıq iclasının təyin edilməsi haqqında bildirişlərin cinayət işində saxlanılan surətləri, həmçinin 51/12, 15/12, 32/14, 40/14, 41/14, 42/14, 2/15 və 5/15 nömrəli cinayət işləri üzrə hökmlərin surətlərinin proses tərəflərinə göndərilməsinə dair məktublar ötən müddət ərzində hakim T.Hüseynovanın özü tərəfindən imzalanmamışdır.

Qeyd edilənlərlə yanaşı, 1/12, 2/12, 43/12, 39/13, 1/14, 2/14, 7/14, 32/14, 37/14, 39/14, 43/14, 44/14, 45/14, 46/14, 50/14, 3/15, 5/15 və 7/15 nömrəli cinayət işləri üzrə qanuni qüvvəyə minmiş hökmlərin icraya yönəldilməsinə dair məktubların cinayət işinin materiallarında saxlanılan nüsxələri hakim T.Hüseynova tərəfindən imzalanmamışdır. Habelə həmin cinayət işlərindəki məhkəmə sənədlərinin nömrələnməsi və xronoloji qaydada tikilməsi təmin edilməmişdir.

Hakim T.Hüseynova işlərə baxarkən yuxarıda qeyd edilən hərəkətləri ilə məhkəmədə icra intizamının və prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol verməklə yanaşı, fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsinə süni maneələr yaratmaqla "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.3.12-ci maddəsində nəzərdə tutulan korrupsiyaya şərait yaradan hüquqpozma da törətmişdir.

Beləliklə, Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında sözügedən pozuntular maddi və prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq.

Ümid edirik ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.

≈≈≈



# AZAD TRİBUNA

## Elektron məhkəmə sistemi: mövcud vəziyyət, beynəlxalq təcrübə və perspektivlər

Ötən əsrin sonlarından başlayaraq informasiya-kommunikasiya texnologiyaları dövlətin və cəmiyyətin inkişafına ciddi təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Yeni texnologiyaların təsir dairəsi dövlət orqanlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi-siyasi, sosial-mədəni, elm və təhsil sahələrini, bütövlükdə, insanların həyat tərzini əhatə etmişdir. Müasir informasiya-kommunikasiya ekosisteminin inkişafı və geniş tətbiqi hökumət orqanlarının işinə yeniliklər gətirmiş, həmçinin beynəlxalq aləmdə əlaqələrin tərkib hissəsinə çevrilmişdir.

Azərbaycan Respublikasında informasiya cəmiyyətinin formalaşdırılması üzrə fəaliyyətin əsası ümummilli lider Heydər Əliyevin imzaladığı ***"Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın*** təsdiq edilməsi haqqında 17 fevral 2003-cü il tarixli Sərəncamla qoyulmuşdur.

Milli Strategiyadan irəli gələn vəzifələrin reallaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan sərəncamlar əsasında təsdiq edilmiş Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci və 2010-2012-ci illər üçün Dövlət Proqramları (Elektron Azərbaycan), eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ hüquqi aktlar əsasında dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində hüquqi baza formalaşmış, 2012-ci ilin aprel ayında dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadəni təmin edən "Elektron hökumət" portalı istifadəyə verilmişdir.

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, müasir informasiya texnologiyalarının məhkəmələrin fəaliyyətində də tətbiqi prosesinin sürətləndirilməsi məqsədi ilə ***"Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında"*** Azərbaycan Respublikasının Prezidenti 13 fevral 2014-cü il tarixli Sərəncam imzalamış, həmin sərəncama uyğun

olaraq “Elektron məhkəmə” informasiya sisteminin yaradılması prosesinə başlanılmış və bu sahədə işlər davam etdirilməkdədir.

***“Elektron məhkəmə” (“E-Justice”) nədir və nələri vəd edir?***

Dünya təcrübəsində “E-məhkəmə” dedikdə, ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində informasiya texnologiyalarının sistematik şəkildə tətbiqi nəzərdə tutulur. “E-məhkəmə” mövcud internet və lokal şəbəkələr vasitəsilə məhkəmə və digər məhkəmələr, icra qurumları, dövlət orqanları və proses iştirakçıları arasında sənəd və informasiya mübadiləsini, habelə məhkəmə daxilində elektron sənəd dövriyyəsini təmin edir. “E-məhkəmə” “Elektron dövlət” infrastrukturunun tərkib hissəsi kimi dövlət hakimiyyətinin məhkəmə qolunu təmsil edir.

Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, elektron məhkəmə sisteminin təyinatı ədalət mühakiməsinin həyata keçirilməsində qaydalar dəyişikliyi deyil, üsullar dəyişikliyini nəzərdə tutur. Yəni, ədalət mühakiməsinin həyata keçirilməsinin ənənəvi üsul və vasitələri yeni üsullarla əvəz olunur. Belə ki, ənənəvi üsullarla tərəflər məhkəmədə iddia qaldırarkən bunu kağız daşıyıcılarda tərtib edib poçt vasitəsilə və ya bilavasitə məhkəməyə təqdim edirlərsə, artıq elektron məhkəmə sistemi istifadəçi rahatlığı, operativlik və iqtisadi cəhətdən daha səmərəli olan elektron ərizə üsulundan istifadə edir. Və yaxud ənənəvi qaydada məhkəmə iclaslarının vaxtı və yeri barədə məlumatlar tərəflərə kağız daşıyıcıda poçt vasitəsilə çatdırılırsa, elektron məhkəmə sistemi bu məlumatların daha operativ şəkildə çatdırılmasını təmin edən elektron məlumatlandırma (SMS, E-mail və s.) üsulundan istifadə edir.

Göründüyü kimi, elektron məhkəmə sisteminin gətirdiyi inqilabi yenilik əsasən istifadəçi rahatlığı və məhkəmə işlərinin avtomatlaşdırılması ilə bağlıdır. Digər tərəfdən bu məhkəmə proseslərinin daha şəffaf və obyektiv şəkildə həyata keçirilməsinə təsir edən vasitələrə də malikdir. Belə ki, məhkəmə proseslərinin video qeydiyyatının aparılması, məhkəmə qərarlarının dərc olunması, icra prosesinin izlənilməsi kimi texniki imkanlar ictimai nəzarət mexanizminin işə düşməsi ilə işlərə daha obyektiv şəkildə baxılmasını, ədalətli qərarların qəbul edilməsini stimullaşdırır.

Ölkəmizin və bir sıra qabaqcıl dünya ölkələrinin təcrübəsinə nəzər saldıqda görərik ki, elektron məhkəmə sistemi ilə bağlı işlər məhkəmə-hüquq islahatları ilə birlikdə, qarşılıqlı əlaqədə aparılır. Fikrimizcə, bu ilk növbədə onunla əlaqədardır ki, məhkəmə-hüquq islahatları aparılmadan, təkcə elektron məhkəmə sisteminin tətbiqi ədalət mühakiməsinin həyata keçirilməsində ciddi keyfiyyət dəyişikliklərinə səbəb ola bilməz. Yuxarıda da qeyd etdiyimiz kimi, elektron məhkəmə sistemi ədalət mühakiməsinin həyata keçiril-

məsində səmərəliliyi təmin edən üsul və vasitələr dəyişikliyini nəzərdə tutursa, məhkəmə-hüquq islahatları bu sahədə qaydaları dəyişməklə ədalət mühakiməsinin həyata keçirilməsində keyfiyyət amilini diqqətdə saxlayır. Buna misal olaraq ölkəmizdə üçpilləli məhkəmə sisteminin bərqərar olmasını, hakimlərin seçim prosedurunun şəfaff və obyektiv meyarlara əsaslanmasını, kobud pozuntulara yol verən hakimlər barəsində ciddi intizam tədbirlərinin tətbiqi kimi kompleks tədbirləri göstərmək olar.

Elektron məhkəmə sisteminin müxtəlif dövlətlərdə tətbiqi təcrübəsinə nəzər salsaq görərik  ki, bir çox hallarda bu sistem tam şəkildə deyil, onun ayrı-ayrı elementləri tətbiq olunur.

**ABŞ-**da elektron məhkəmə sisteminin vahid portalı olan "www.uscourts.gov" fəaliyyət göstərir. Portal vasitəsilə əhali məhkəmələr və hakimlər barədə ümumi məlumatlar əldə etməklə yanaşı, interaktiv xidmətlərdən də yararlana bilirlər. Belə ki, istifadəçilər şəhər və ya poçt indeksi üzrə aidiyyəti məhkəməni müəyyənləşdirmək, məhkəmədə baxılan işlərin vaxtı və yeri barəsində məlumatlar əldə etmək, müxtəlif işlər üzrə aparılmış video çəkilişləri izləmək və s. kimi imkanlara malikdirlər. ABŞ-da 1999-cu ildən etibarən məhkəmədə baxılan iş materialları, məhkəmə qərarları elektron şəkildə saxlanılır və istifadəçilər elektron məhkəmə sisteminin "PACER"[2] (Məhkəmə elektron qərarlar bazası) xidmətindən istifadə etməklə həmin sənədləri əldə etmək imkanına malikdirlər. Bundan başqa, CM/ECF[3] (İşlərin idarə edilməsi və elektron iş faylları) sistemi vasitəsilə ərizələrin elektron qəbulu, işlərin elektron idarəetməsi, sənədlərin elektron dövriyyəsi həyata keçirilir. ABŞ e-məhkəmə sisteminin mənfi tərəfi ondan ibarətdir ki, istifadəçilərin vahid şəxsi kabineti yoxdur. Məhkəməyə elektron müraciət etmək üçün həmin məhkəmədən xüsusi identifikasiya vasitələrini (istifadəçi adı və şifrə) əldə etmək lazım gəlir ki, bu da özlüyündə istifadəçilər üçün vəziyyəti çətinləşdirir. Hazırda ABŞ-da e-məhkəmə sisteminin təkmilləşdirilməsi sahəsində işlər aparılmaqdadır və gələcəkdə istifadəçilərin vahid şəxsi kabinet vasitəsilə bütün məhkəmələrə müraciət və eyni zamanda məhkəmə sənədlərini əldə etmək imkanının təmin olunması nəzərdə tutulur.

**Avropa** ölkələrindən Almaniya, Fransa və İngiltərə kimi inkişaf etmiş ölkələrdə də elektron məhkəmə sistemi tam və sistemli şəkildə tətbiq olunmamışdır. Lakin, Estoniya, Avstriya, Portuqaliya və Türkiyə bu sahədə ciddi nailiyyətlər əldə edə bilmişlər.

---

[2] https://www.pacer.gov  (Public Access to Court Electronic Records)

[3] http://www.uscourts.gov/courtrecords/electronic-filing-cmecf (Case Manager / Electronic Case Files)

**Estoniyada** məhkəmə sisteminin portalı www.kohus.ee fəaliyyət göstərir. Portal əsasən məhkəmə sistemi, hakimlər barədə informativ xarakterli xidmətlər təklif edir. Estoniya elektron məhkəmə sisteminin müsbət tərəflərindən biri bütün ölkə üzrə məhkəmə qərarlarının vahid məlumat bazasının yaradılması və vətəndaşlara axtarış sistemi vasitəsilə təqdim edilməsidir. Bundan başqa, Estoniya "E-fayl sistemi"[4] vasitəsilə vətəndaşlar məhkəməyə getmədən iddia ərizəsi ilə məhkəməyə müraciət edə, dövlət rüsumlarını ödəyə, həmçinin prosesin gedişi ilə bağlı zəruri məlumatları onlayn şəkildə izləyə bilərlər.

Azərbaycanda E-məhkəmə sistemi ilə bağlı işlər "Elektron Azərbaycan" proqramının tərkib hissəsi kimi reallaşdırılmaqdadır. Vətəndaşların məhkəmələrə müraciət imkanlarının daha da asanlaşdırılması və hüquqi xidmətin yaxşılaşdırılması məqsədilə 2011-ci ildə Azərbaycan məhkəmə sisteminin vahid internet portalı - www.courts.az yaradılmışdır. Portalda məhkəmələr və onların fəaliyyəti, o cümlədən hakimlər barədə bütün zəruri məlumatlar öz əksini tapmış, elektron müraciət, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək imkanı yaradılmış, məhkəmə qərarlarının elektron informasiya bazası formalaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Elektron məhkəmə" sisteminin yaradılması haqqında yuxarıda adı çəkilən sərəncamı bu sahədə işlərin daha da sürətləndirilməsini, portalın interaktiv xidmətlər göstərməsi üçün zəruri tədbirlər görülməsini də nəzərdə tutur.

Sərəncama əsasən hazırda yaradılmaqda olan "Elektron məhkəmə" informasiya sistemi müraciətlərin elektron formada qəbulu, məhkəmə icraatının elektron qaydada aparılması, işlərin hakimlər arasında avtomatlaşdırılmış qaydada bölgüsü, proses iştirakçılarına məlumatların elektron qaydada çatdırılması, məhkəmə proseslərinin qeydə alınması və onları onlayn rejimdə müşahidə etmək imkanının yaradılması, məhkəmə statistikasının elektron qaydada aparılmasını və məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması kimi mütərəqqi funksiyalara malik olacaqdır.

Hazırda ədalət mühakiməsinin həyata keçirilməsi zamanı ortaya çıxan çətinliklərdən biri də məhz müddətlər və müddətlərə nəzarət edilməsi ilə bağlıdır. "Elektron məhkəmə" sisteminin yaradılması bu sahədə də köklü dəyişikliklər nəzərdə tutur. Belə ki, elektron məhkəmə sistemi prosessual müddətlərə nəzarət edilməsini və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyaların tətbiqini, icra prosesinin izlənilməsini, proseslərin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər

[4] https://www.e-toimik.ee (Estoniya e-fayl informasiya sistemi)

barədə məlumat almaq imkanlarına malik "şəxsi kabineti"in yaradılmasını da nəzərdə tutur.

Qeyd edək ki, muxtar respublikamızda da dövlət orqanlarının, eləcə də məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətində informasiya təminatının həyata keçirilməsinin təkmilləşdirilməsi, habelə yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən imzalanan 15 iyul 2011-ci il tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Fərmana uyğun olaraq bu sahədə ciddi nailiyyətlər əldə edilmiş, əhalinin dövlət orqanlarına müraciət etmək hüququnun daha da asanlaşdırılması məqsədilə informativ və interaktiv elektron xidmətlər göstərilməsini təmin edən portal və saytlar yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi yuxarıda adları çəkilən fərman və sərəncamlardan irəli gələn vəzifələrin icrası istiqamətində mühüm işlər görmüşdür. Ədalət mühakiməsinin daha səmərəli və şəffaf şəkildə həyata keçirilməsi, aşkarlıq və operativliyin təmin edilməsi məqsədilə 2015-ci ilin yanvar ayından məhkəməyə daxil olan işlərin hakimlər arasında bərabər bölgüsünü təmin edən "Məhkəmə idarəetmə sistemi" proqram təminatı hazırlanaraq tətbiq olunmağa başlamışdır.

Bundan başqa, Ali Məhkəmənin Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən rəsmi internet saytı 2015-ci ildə xüsusi proqramlaşdırma dilində müasir standartlar səviyyəsində yenidən hazırlanmış, istifadəçilərin rahatlığını təmin etmək üçün mobil cihazların tələblərinə uyğunlaşdırılmış, saytda yayımlanan məlumatlardan istifadəni asanlaşdırmaq məqsədilə vahid axtarış sistemi qurulmuş, sayt Azərbaycan Respublikasının elektron məhkəmə sisteminin vahid portalına inteqrasiya edilmişdir.

Beləliklə, ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatların tərkib hissəsi kimi müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqi məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin edilməsinə xidmət edəcəkdir.

## İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:

1. “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli 1146 nömrəli Sərəncamı

2. “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı”nın (Elektron Azərbaycan)” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 21 oktyabr tarixli 1055 nömrəli Sərəncamı.

3. “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010 - 2012-ci illər üçün Dövlət Proqramı”nın (Elektron Azərbaycan)” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli, 1056 nömrəli Sərəncamı

4. “Elektron hökumət” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli Fərmanı

5. “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı

6. https://az.wikipedia.org/wiki/Elektron_h%C3%B6kum%C9%99t_portal%C4%B1 (Elektron hökumət portalı)

7. https://e-justice.europa.eu (Avropa məhkəmə sistemi)



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

**2015-ci ilin oktyabr-dekabr, 2016-cı ilin yanvar-mart aylarında keçirilən tədbirlərin xülasəsi**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 27 iyul 2015-ci il tarixli Sərəncam imzalamışdır. Həmin sərəncamla Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci üzrə 100-ə yaxın ixtisas muxtar respublikanın müvafiq təşkilatlarına hamiliyə verilmişdir.

Naxçıvan Dövlət Universiteti üzrə hüquqşünaslıq ixtisası həmin Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Daxili İşlər və Ədliyyə nazirliklərinə hamiliyə verilmişdir.

Sözügedən sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ötən ilin oktyabr ayının 15-də 2015-2016-cı tədris ili üçün Naxçıvan Dövlət Universiteti ilə birgə keçiriləcək tədbirlər planını təsdiq etmiş və həmin tədbirlər planı icra edilməkdədir.

Sərəncamın icrası ilə bağlı həmçinin ötən il olduğu kimi 2016-cı ildə də görüləcək işlərə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri tərəfindən tədbirlər planı təsdiq edilmiş və bir sıra tədbirlər həyata keçirilmişdir.

≈≈≈

2015-ci ilin noyabr ayının 14-də Məhkəmə-Hüquq Şurasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şəki Məhkəmə Kompleksinin açılışı zamanı keçirilmiş müşavirədə verdiyi tapşırıqlardan irəli gələn vəzifələrin icrasına həsr olunmuş geniş iclası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasda iştirak etmişdir.

İclasda ölkə Prezidenti cənab İlham Əliyevin Şəki Məhkəmə Kompleksinin açılışında məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması üzrə konkret tapşırıqları və qarşıda qoyduğu mühüm vəzifələr, o cümlədən korrupsiya

ilə barışmaz mübarizə aparılması, şəffaflığın artırılması, məhkəmə qərarlarının ədalətliliyi, vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması ilə bağlı tələbləri diqqətə çatdırılmışdır.

Tədbir öz işini "Məhkəmə təcrübəsi məsələləri" mövzusunda seminarla davam etdirmişdir. Seminardan sonra tədbir iştirakçıları bu ərəfədə dövlət başçısı tərəfindən açılışı keçirilmiş Sabunçu Məhkəmə Kompleksinə gedərək yaradılmış yüksək şərait və elektron idarəetmə sistemləri ilə tanış olmuşlar.

≈≈≈

2015-ci il dekabr ayının 17-də Məhkəmə-Hüquq Şurasının hakim assosiasiyaları rəhbərlərinin və hakimlərin iştirakı ilə geniş iclası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasda iştirak etmişdir.

İclasda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə islahatlarının ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi bildirilmiş, bu sahədə əldə edilmiş nailiyyətlərin beynəlxalq aləmdə də etiraf olunduğu vurğulanmışdır.

Qeyd edilmişdir ki, Avropa Şurasının mühüm təsisatı olan Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) 12 illik fəaliyyətinə həsr olunmuş və bütün üzv dövlətlərdə yayılan xüsusi nəşrdə Azərbaycanda həyata keçirilən məhkəmə islahatına böyük önəm verilərək buna ayrıca bölmə həsr olunmuşdur.

Avropa Şurasının bu nüfuzlu nəşrində ölkəmizdə irimiqyaslı məhkəmə islahatlarının müsbət nəticələri, o cümlədən məhkəmə özünüidarəsinin genişlənməsi, hakimlərin mütərəqqi seçimi, məhkəmə infrastrukturunun müasirləşməsi, texnoloji yeniliklərin tətbiqi və şəffaflığın təmin olunması üzrə işlərin digər Avropa dövlətlərinə nümunə göstərilməsi məhkəmə islahatlarımıza verilən dəyərin və dövlətimizin beynəlxalq nüfuzunun daha bir təzahürüdür.

Həmçinin iclasda 2010-cu ildə yeni qaydalarla seçilmiş 20-dən çox hakimin, habelə, bir sıra məhkəmə sədrlərinin səlahiyyət müddətinin başa çatdığı bildirilmiş, onların hər birinin fəaliyyətinin yerində öyrənilməsi, yuxarı instansiya məhkəmələri tərəfindən təqdim edilmiş rəylərin və digər məlumatların ətraflı təhlil olunduğu vurğulanmışdır.

Müzakirələrdən sonra hakimlərin fəaliyyətinin qiymətləndirilməsi nəticələri üzrə onların təyinatına dair müvafiq təkliflər hazırlanmışdır.

İclasda həmçinin, hakimlər barədə intizam icraatına baxılaraq, vətəndaşların hüquqlarının həyata keçirilməsinə süni maneələr törətməklə korrupsi-

yaya şərait yaradan hallara, icra intizamının kobud pozulmasına yol verdiyinə görə bir hakim ciddi intizam məsuliyyətinə cəlb edilmiş, bu kimi hallara yol verdiklərinə görə üç hakim barədə intizam icraatları başlanılmışdır.

≈≈≈

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarının icrası çərçivəsində hakim vəzifəsinə namizədlərin şəffaf üsullarla, müasir beynəlxalq tələblər səviyyəsində seçilməsinə xüsusi əhəmiyyət verilir.

Bununla əlaqədar ölkəmizdə hakimlərin seçiminin Avropada örnək kimi dəyərləndirilən mütərəqqi qaydaları hazırlanmış, son illər ərzində 2600 namizəd sırasından 307 nəfər yüksək hazırlıqlı hüquqşünas seçilərək uzunmüddətli təlimlər, məhkəmələrdə, o cümlədən xarici dövlətlərdə təcrübə keçdikdən sonra hakim vəzifələrinə təyin edilmişlər.

Hakimlərin Seçki Komitəsinin dekabr ayının 14-də keçirilən iclasında mövcud vakansiya və hakim kadrlarına ehtiyaclarla bağlı məsələ müzakirə edilmiş və hakimliyə namizədlərin sənədlərinin növbəti qəbulunun başlanılması qərara alınmışdır.

Hakimliyə namizədlərin sənədlərinin 15 dekabr 2015-ci il tarixdən Hakimlərin Seçki Komitəsi tərəfindən qəbul ediləcəyi bildirilmişdir (ünvan: Bakı şəhəri, Z.Xəlilov küçəsi, 540-cı məhəllə).

Hakimliyə namizədlər üçün əlverişli şərait yaradılması məqsədilə "Hakimliyə Namizədin Yaddaş Kitabçası", tələb edilən sənədlərin siyahısı, hakim vakansiyaları barədə və digər məlumatlar Məhkəmə-Hüquq Şurasının internet saytında yerləşdirilmişdir (www.jlc.gov.az).

≈≈≈

2015-ci il dekabr ayının 22-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar məruzə etmişdir. Məruzədə qeyd olunmuşdur ki, hüquq-mühafizə orqanları maarifləndirmə, profilaktika tədbirlərini davam etdirməli, nizam-intizamı daha da möhkəmləndirməli, ictimai asayiş və sabitlik qorunmalıdır.

≈≈≈

Dekabr ayının 29-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmiş, iclasda 2015-ci ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan söhbət açmış, 2015-ci ildə muxtar respublika məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Bildirilmişdir ki, əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, eləcə də onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiq edilməsi ilə bağlı bir sıra işlər görülmüşdür.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2015-ci ildə gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

≈≈≈

2016-cı il fevral ayının 2-də Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin 90 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında” 1 fevral 2016-cı il tarixli Sərəncamı oxunmuş, məhkəmənin iki əməkdaşına “Rəşadətli əməyə görə” nişanı təqdim edilmişdir.

≈≈≈≈≈
≈≈≈
≈

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin bülleteni – 10 il

Bu il Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin bülleteninin nəşr olunmasının 10 ili tamam olur.

Bülletenin buraxılmasını zəruri edən əsas amillərdən biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi məsələlərinə dair 19 yanvar 2006-cı il tarixli Fərmanında məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı məhkəmə hakimiyyəti orqanlarına ünvanladığı tövsiyələr olmuşdur. Belə ki, həmin fərmanda digər orqanlarla yanaşı, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə də məhkəmə fəaliyyətinin hüquqi və informasiya təminatının həyata keçirilməsini təkmilləşdirmək, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmək tövsiyə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xüsusi diqqət və qayğısı, habelə bilavasitə dəstəyi ilə 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin dövri mətbu nəşri olan Bülleteninin ilk nömrəsinin işıq üzü görməsi muxtar respublikada fəaliyyət göstərən bütün məhkəmələr, prokurorluq və digər hüquq-mühafizə orqanları üçün olduqca əlamətdar bir hadisə olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məhkəmələr və hüquq-mühafizə orqanları tərəfindən hüquqi maarifləndirmə işinin təşkilini hər zaman önə çəkmiş, bu sahədə əməli tədbirlərin həyata keçirilməsinin zəruriliyini xüsusi olaraq vurğulamışdır. Bu baxımdan Bülletenin buraxılması muxtar respublikada yaşayan əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, qanunvericiliyə edilən dəyişikliklər, eləcə də normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün aktual olan rəsmi sənədlərlə oxucularımızı tanış etmək baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Ötən dövr ərzində ildə iki nömrəsi dərc edilməklə bülletenin artıq 20 nömrəsi işıq üzü görmüşdür. Bu günədək "Bülleten"in bütün nömrələrində həm hakimlər, həm də hüquq sahəsində fəaliyyət göstərən digər hüquqşünaslar üçün milli qanunvericiliyin tətbiqi ilə bağlı ortaya çıxan nəzəri və təcrübi problemlərə həsr edilən elmi məqalələrə yer verilmiş, məhkəmə fəaliyyətinə dair statistik göstəricilər dərc olunmuş, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının qanunvericiliyinə gətirilən yeniliklər barədə məlumatlar oxucuların nəzərinə çatdırılmışdır.

Bülletenin ilk buraxılışında onun təyinatı ilə oxucularımızı tanış edərkən qeyd olunmuşdur ki, çatmaq istədiyimiz məqsədlərdən biri də hüquq sahəsinə aidiyyəti olan qurumlarla, o cümlədən Naxçıvan Dövlət Universitetinin hüquq fakültəsi, bu fakültənin müəllim və tələbələri ilə əməkdaşlıq qurmaq, onları Bülletenin fəaliyyətinə cəlb etməkdir. Hazırda Bülletenimizdə təkcə Ali Məhkəmədə çalışan hüquqşünasların deyil, eləcə də digər məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının, Naxçıvan Dövlət Universitetinin hüquq fakültəsinin müəllimlərinin də elmi-analitik məqalələrinə yer verilməkdədir.

Bülletenin "İnsan hüquqları və məhkəmə təcrübəsi", "Nəzəriyyə və hüquqtətbiqetmə problemləri", "Hakimlərin milli və beynəlxalq qurumlarında" və "Azad tribuna" adlı sərlövhələrində dərc olunmuş, hüququn tətbiqi zamanı təcrübədə ortaya çıxan müxtəlif problemlərə və onların həlli yollarına həsr olunmuş analitik yazılar, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent təcrübəsinin öyrənilməsi məqsədilə həmin məhkəmənin yeni qərarlarının icmalları təkcə muxtar respublikamızda deyil, ölkəmizin digər bölgələrində yerləşən məhkəmə və hüquq-mühafizə orqanlarında çalışan hüquqşünaslar tərəfindən də dəyərli mənbə kimi yüksək qiymətləndirilir.

Göstərilən bu marağı nəzərə alaraq daha geniş auditoriyaya ünvanlamaq, hüquqşünasların və hüquq sahəsinə marağı olan digər şəxslərin, həmçinin universitetlərin hüquq fakültələrində təhsil alan tələbələrin bülletenin materialları ilə tanış ola bilməsini asanlaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin rəsmi internet saytında (www.supremecourt.nakhchivan.az) bülletenin bütün nömrələrinin elektron variantı yayımlanmaqdadır. Buradan oxucular məhkəmə-hüquq sahəsinə aid olan yeni qanunvericilik aktları, Ali Məhkəmənin fəaliyyətinə dair materiallar, müxtəlif hüquqi mövzulara həsr olunmuş məqalələr, Avropa Məhkəməsinin qərarları, eləcə də ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində beynəlxalq miqyasda, habelə ölkəmizdə və muxtar respublikamızda baş vermiş əlamətdar hadisələr barədə məlumatları əldə etmək imkanına malikdirlər.

Oxucularımızla əməkdaşlıq sayəsində meydana gələn fikirlər nəzərə alınaraq bülletenin strukturu və məzmunu, yayımlanan sərlövhələr mütəmadi olaraq təkmilləşdirilməkdədir. Ümid edirik ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Bülleteni ötən 10 ildə olduğu kimi bundan sonra da ölkəmizin və muxtar respublikamızın hüquq ictimaiyyəti arasında qazandığı rəğbəti daha da möhkəmləndirəcək, hüquqşünaslar üçün dəyərli hüquqi mənbə rolunu oynamağa davam edəcəkdir.

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

4700000000
053-2014

Yığılmağa verilmiş: 07.04.2016.
Çapa imzalanmış: 14.04.2016.
Formatı 60x90 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 5,5 ç.v.
Sifariş № 762. Tiraj 100 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.